RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 164 (8480) CÜMƏ AXŞAMI, 20 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Qətiyyətli Sərkərdə, güclü ordu, prinsipial mövqe

## Gələn il «Abşeron» yatağından ilk qazın əldə olunacağı gözlənilir

**Xəzərin Azərbaycan sektorundakı "Abşeron" qaz-kondensat yatağından hasilatın 2021-ci ildə başlanacağı nəzərdə tutulur. Bu, son illərdə kəşf olunmuş ən perspektivli yataqlardan biridir. Yatağın işlənməsində SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və Fransanın tanınmış "Total" şirkəti tərəfdaşlıq edirlər.**

"Abşeron" layihəsi hazırki mərhələsinə sınaqlardan keçərək çatmışdır. Belə ki, bu yatağın kəşf olunmasının diqqətçəkən tarixçəsi var. Hələ keçən əsrin 90-cı illərində "Abşeron"un kəşfiyyat işlərində Azərbaycan mütəxəssisləri bir xarici şirkətlə tərəfdaşlıq şəraitində çalışmışlar. Lakin işlər uğursuzluqla nəticələnmişdi. Geoloqlarımız isə yatağın perspektivli olduğu barədə fikirlərində işrarlı idilər. SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə hələ o zaman "Abşeron"un ən azı 300 milyard kubmetr qaz ehtiyatı olduğunu söyləmişdi.

*Ardı 4-cü səh.*



## İlham Əliyevin yaratdığı Cənubi Qafqazın ən güclü ordusu Ermənistanın cəbhə xəttindəki istənilən təxribatına layiqli cavab verəcək

**Zaman-zaman Azərbaycana qarşı müxtəlif təxribatlar törətməklə həm danışıqlar prosesini uzatmağı, həm də səfalət içərisində yaşayan ölkə ictimaiyyətinin ciddi narazılıqlarının qarşısını almağı terrorçu siyasətinin "ana xətti" kimi müəyyənləşdirən Ermənistan hakimiyyəti son günlərdə yeni avantüralara başlayıb.**

Təbii ki, yenə də gərginliyin yaradılmasında məqsəd daxili problemlərdən diqqəti yayındırmaqdır. Çünki bir tərəfdən ölkədə həm siyasi, həm də sosial-iqtisadi gərginlik getdikcə böyüyür. Eyni zamanda N.Paşinyanın koronavirus pandemiyası ilə mübarizədə hər hansısa bir proqramının mövcud olmaması yoluxma və ölənlərin sayının getdikcə artması ilə nəticələnir. Ermənistan həm virusa yoluxanların, həm də ölənlərin sayına görə Cənubi Qafqazda liderdi.

Bir tərəfdən Paşinyanın BBC televiziyasının "HARDTalk" proqramında özünü növbəti dəfə rüsvay etməsi, digər tərəfdən daxili dramatik vəziyyət, pandemiyanın ağır fəsadları ölkədə ciddi etirazlara səbəb olub. Faşist ideologiyasının təbliğatçıları isə bu rəzillikdən qurtuluşu yenə də təxribatlar törədib əhalinin fikrini yayındırmaqda görürlər.

### Uşaq qatillərinin standart praktikası...

Bu dəfə vəziyyəti gərginləşdirməyə xidmət edən təxribatlarla bağlı ilk tapşırığı Dağlıq Qarabağdakı qondarma rejimin başçısı Araik Arutyunyan verib. Bu şəxsin Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin vurula biləcəyi ilə bağlı sərsəm fikirləri əlbəttə ki, Azərbaycan ictimaiyyətində narahatçılıq yaratmaq məqsədini güdür. Guya xalq bundan ciddi narahat olacaq və ölkədə gərginlik yaranacaq.

Lakin bu terrorçu qruplaşmanın üzvləri yaxşı bilirlər ki, Azərbaycan xalqı təcavüzkarın hansı hərbi "gücə" malik olduğundan yaxşı xəbərdardır. Əgər Ermənistanda Gəncəni vurmaq cəsarəti var idisə, Aprel və Tovuz döyüşlərində bunu nədən reallaşdırmadı?!

Onların belə bir hərbi imkanları olsaydı, erməni vandalizmi özünü bir daha göstərərdi. Çünki uşaq qatillərinin standart praktikası yalnız mülki obyektləri və yaşayış məntəqələrini hədəfə almaqdır. 2016-cı il aprel hadisələri, 2 yaşlı Zəhranın nənəsi ilə birgə həlak olması, Tovuz istiqamətində baş vermiş döyüş toqquşmaları zamanı da Ermənistan silahlı qüvvələri tərəfindən mülki obyektlərin hədəfə alınması və dinc sakinlərin qəsdən öldürülməsi bunu bir daha təsdiqləyir.

Təəssüfləndirici haldır ki, terrorçu hakimiyyətin bu vəhşilikləri dünya birliyinin gözü qarşısında baş verir. Yenə də təcavüzkara qarşı heç bir sanksiya tətbiq edilmir. Münaqişənin nizamasalınma prosesinə cəlb edilən ATƏT-in Minsk qrupunun həmsədrləri də hər zaman eyni ampluadadırlar. Elə ona görə işğalçı bu cəzasızlıq mühitindən lazımınca yararlanaraq hərbi təxribatlarından əl çəkmir.

*Ardı 4-cü səh.*

## Pandemiya tələblərinə əməl etsək, karantin rejiminə lüzum qalmaz

**Qlobal pandemiya ilə mübarizə davam edir. Bəşəriyyət hələlik yeni tip koronavirusu birdəfəlik məhv edə bilməyəcəyini anlayaraq, COVID-19-un şərtləri ilə yaşamağa məcburdur. Reallıq odur ki, ani bir diqqətsizlik insanların həyatını sual altında qoya bilər. Çünki gözəgörünməz bəla çox təhlükəli, aqressivdir və hansısa səhv ağır nəticələr verə bilər.**

Elə hər gün ölkələr üzrə sürətlə artan yoluxma və ölüm sayları bunu bir daha təsdiq edir...

Qlobal bəşəri təhlükə yayılmağa başlayandan Azərbaycan dünyanı bürümüş virusa qarşı mübarizədə ən ciddi tədbirlər görmüş ölkələr sırasında yer alıb. Dövlət başçısı İlham Əliyevin birbaşa rəhbərliyi altında pandemiyaya qarşı vaxtında görülən preventiv tədbirlər sayəsində COVID-19-un ölkəmizdə yayılmasının qarşısı alınıb. Amma yenə də ehtiyatı əldən vermək olmaz.

*Ardı 6-cı səh.*

## Paşinyan Ermənistanın çöküşünü sürətləndirir

### Pandemiyanın ikinci dalğası başlayacağı təqdirdə işğalçı ölkənin məhvi qaçılmaz sayılır

**Pandemiya səbəbindən dünya iqtisadiyyatında yaranan çətinliklər fonunda qlobal maliyyə böhranının daha da ağırlaşa biləcəyi indi xüsusi diqqət mərkəzində yer alan əsas məsələlərdəndir. Artıq dünyanın əksər dövlətləri pandemiyanın ikinci dalğası nəticəsində yarana biləcək böhrana qarşı preventiv tədbirlər görülməsi istiqamətində müəyyən hazırlıqlara da başlayıblar.**

Lakin pandemiyanın ikinci dalğasının yenidən başlanması halında iqtisadiyyatın tamamilə çökməsi labüd olacaq ölkələr də mövcuddur ki, onların sırasında Ermənistan xüsusi ilə seçilir.

Bu ölkənin özündə də açıq etiraf edilir ki, ABŞ və Avropa iqtisadiyyatında yaranan çətinliklər yeni dünya böhranına rəvac verərsə, Ermənistan daha böyük sosial-iqtisadi problemlərlə üzləşməli olacaq. Bunu şərtləndirən bir neçə önəmli səbəb var. Əvvəla, koronavirus nəticəsində yaranan maliyyə böhranı Ermənistanın onsuz də bərbad olan iqtisadiyyatına böyük zərbə vurub. Elə bunun nəticəsidir ki, böhranın özünün zirvə nöqtəsinə çatdığı cari ilin aprel ayından bəri Ermənistanda böyük tənəzzül yaşanır.

Ümumiyyətlə, Paşinyanın hakimiyyətə gəlməsindən 2 il müddət keçməsinə baxmayaraq, ötən dövr ərzində rəqabətədavamlı hər hansı istehsal sahəsinin yaradılmaması, kiçik və orta sahibkarlığın məhvinin astanasına çatması, infrastrukturun yoxluğu da vəziyyəti ağırlaşdıran əsas səbəblər sırasında yer alır.

*Ardı 4-cü səh.*

## Su bol olanda, məhsul da bol olur

**Bu il təbiət insanları sınağa çəkdi. Yay mövsümündə havalar gözlənildiyindən də isti və quraq keçdi. Günü əkin sahələrində keçən kənd adamları, sözün əsl mənasında, imtahan qarşısında qaldılar.**

Aylarla torpaqda işləyən və payızda onun bəhrəsini görmək arzusu ilə çalışan insanlar su sarıdan korluq çəkərək min bir əziyyətə qatlaşdılar. Belə bir vaxtda onların köməyinə yenə də meliorasiya və su təsərrüfatı işçiləri gəldilər. Onlar mövcud su mənbələrini hərəkətə gətirərək imkanlarını səfərbərliyə aldılar. Çalışdılar ki, zəhmətlə yetişdirilmiş məhsul itkiyə getməsin.

Belə gərgin vaxtlarda yerlərdə iş necə təşkil olundu? Yaranmış çətinliyin aradan qaldırılması üçün hansı tədbirlər görüldü?! Bu suala cavab tapmaq üçün Göygöl Rayon Suvarma Sistemləri İdarəsində olduq.

*Ardı 5-ci səh.*



AZƏRBAYCAN www.azerbaijan-news.az

# Həsən Seyidbəylinin 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin dekabr ayında Azərbaycan mədəniyyətinin tanınmış nümayəndəsi, kinodramaturq, rejissor və ssenarist, Xalq artisti Həsən Mehdi oğlu Seyidbəylinin anadan olmasının 100 illiyi tamam olur.

Həsən Seyidbəyli ssenari müəllifi olduğu və rejissor kimi quruluş verdiyi yüksək bədii keyfiyyətə malik, eləcə də ifadə vasitələrinin rəngarəngliyi və süjet xəttinin dolğunluğu baxımından seçilən filmlərlə Azərbaycanın kino sənəti salnaməsinə yeni səhifələr yazmışdır. Onun həyat həqiqətlərinə sədaqətlə yaradılan və mənəvi zənginlik, əxlaqi saflıq, dərin zövq aşılayan uğurlu ekran əsərləri, xüsusilə "Nəsimi" tarixi bədii filmi milli kinematoqrafiyanın nailiyyətləri sırasında özünəməxsus layiqli yer tutur. Həsən Seyidbəyli Azərbaycan Kinematoqrafçılar İttifaqına rəhbərlik etdiyi uzun illər ərzində dünya kinosunun qabaqcıl təcrübəsindən lazımınca bəhrələnməklə respublikada kinematoqrafiya fəaliyyətinin təşkilinə və kino sənətinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Meydana gətirdiyi sanballı nəsr nümunələri Həsən Seyidbəyliyə ədəbiyyat aləmində geniş şöhrət qazandırmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan kinematoqrafiyasının inkişafında təqdirəlayiq xidmətlər göstərmiş Xalq artisti Həsən Seyidbəylinin anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının və Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq artisti Həsən Seyidbəylinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 avqust 2020-ci il*

# M.B.Eynullayevin Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mətin Balasən oğlu Eynullayev Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 avqust 2020-ci il*

# M.Kostanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında dostluq və qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Marqerita Kosta "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 avqust 2020-ci il*

# Zaqatala rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Zaqatala rayonunun əhalisi 62916 nəfər olan 17 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 18 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,26 milyon (bir milyon iki yüz altmış min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 avqust 2020-ci il*

***Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 avqust tarixli Sərəncamına Əlavə***

### Zaqatala rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Aşağı Çardaxlar kəndi | 1 | 1170 |
| 2. | Bəhmətli kəndi | 1 | 4786 |
| 3. | Dağlı kəndi | 1 | 3300 |
| 4. | Əliabad qəsəbəsi | 1 | 11200 |
| 5. | Faldarlı kəndi | 1 | 2156 |
| 6. | Gözbarax kəndi | 1 | 2061 |
| 7. | Kəpənəkçi kəndi | 1 | 1111 |
| 8. | Qandax kəndi | 1 | 1829 |
| 9. | Qımır kəndi | 1 | 1804 |
| 10. | Maqov kəndi | 1 | 1705 |
| 11. | Mosul kəndi | 1 | 3261 |
| 12. | Muğanlı kəndi | 2 | 3006 |
| 13. | Muxax kəndi | 1 | 8210 |
| 14. | Yengiyan kəndi | 1 | 1481 |
| 15. | Yeni Suvagil kəndi | 1 | 5355 |
| 16. | Yolayrıc kəndi | 1 | 1460 |
| 17. | Yuxarı Tala kəndi | 1 | 9021 |
| **Cəmi** | | **18** | **62 916** |

# Azərbaycan Respublikası Prezidentinin "Pensiya yaşına çatmasına, əlilliyinə və ya sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində minimum qulluq stajına (15 il) və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin miqdarı haqqında" 2003-cü il 22 oktyabr tarixli 936 nömrəli, "Dövlət qulluqçularına əmək pensiyasının təyin edilməsi üçün dövlət məvacibinin hesablanması Qaydaları"nın və "Dövlət qulluqçularının əmək pensiyasının yenidən hesablanması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2005-ci il 7 fevral tarixli 194 nömrəli, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi haqqında" 2007-ci il 15 oktyabr tarixli 637 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2002-ci il 29 may tarixli 709 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Pensiya yaşına çatmasına, əlilliyinə və ya sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində minimum qulluq stajına (15 il) və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin miqdarı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 22 oktyabr tarixli 936 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 541; 2008, № 7, maddə 612; 2018, № 8, maddə 1692) adında, 1-ci və 3-cü hissələrində "və ya" sözləri ", o cümlədən" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 194 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 70; 2007, № 11, maddə 1117; 2018, № 2, maddə 187) ilə təsdiq edilmiş "Dövlət qulluqçularının əmək pensiyasının yenidən hesablanması Qaydaları"nın 6-cı hissəsində "I qrup əlil" sözləri "I dərəcə əlilliyi olan şəxs" sözləri ilə əvəz edilsin.

3. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 15 oktyabr tarixli 637 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 942) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci və 2.2-ci bəndlərdə "Nazirliyinin Tibbi-Sosial Ekspert Komissiyaları" sözləri "Nazirliyi" sözü ilə əvəz edilsin;

3.2. 2.2-ci bənddə "7.0.11-ci və 9.1.3-cü maddələrində" sözləri "9.1.3-cü maddəsində" sözləri ilə əvəz edilsin.

4. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 may tarixli 709 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 276) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" 2006-cı il 18 aprel tarixli 392 nömrəli, "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" 2006-cı il 25 may tarixli 413 nömrəli, "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin, Komitənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" 2006-cı il 9 avqust tarixli 444 nömrəli, "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" 2007-ci il 13 dekabr tarixli 674 nömrəli, "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"nın təsdiq edilməsi haqqında" 2008-ci il 8 iyul tarixli 796 nömrəli, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2011-ci il 16 fevral tarixli 386 nömrəli, "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 8 may tarixli 626 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 4 mart tarixli 85-IVQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" 2011-ci il 20 aprel tarixli 420 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 324, № 10, maddə 849; 2008, № 7, maddə 612, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 10, maddə 851; 2011, № 2, maddə 85; 2012, № 9, maddə 856; 2014, № 4, maddə 362; 2017, № 4, maddə 557, № 5, maddə 813; 2018, № 2, maddə 205) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.14-cü bənddə "əlil" sözü "əlilliyi olan" sözləri ilə, "müharibə əlili" sözləri "müharibə ilə əlaqədar əlilliyi" sözləri ilə əvəz edilsin və həmin bəndə "uşaqların" sözündən əvvəl "18 yaşınadək" sözləri əlavə edilsin;

1.2. 8.26-cı bənddə "əlil" sözü "əlilliyi" sözü ilə, "əlil və sağlamlıq imkanları məhdud" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin və həmin bəndə "uşaqların" sözündən əvvəl "18 yaşınadək" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411, № 8, maddə 680; 2007, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947; 2008, № 7, maddə 612, № 11, maddələr 967, 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 688, № 9, maddə 855; 2013, № 2, maddə 114, № 6, maddə 651, № 9, maddələr 1060, 1061; 2016, № 3, maddə 436; 2017, № 10, maddə 1781; 2018, № 2, maddə 217, № 5, maddə 932, № 10, maddə 1990; 2019, № 12, maddə 1953; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 1048 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.20-1-ci bənddən "və sağlamlıq imkanlarının məhdudluğunun" sözləri çıxarılsın;

2.2. 9.2-ci bənddə "əlillik, uşaqların sağlamlıq imkanları məhdudluğunu" sözləri "əlilliyin, o cümlədən 18 yaşınadək uşaqların sağlamlıq imkanlarının məhdudluğunun" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 670; 2007, № 3, maddə 233, № 5, maddə 455, № 8, maddə 768, № 11, maddələr 1094, 1105; 2008, № 5, maddə 373, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2012, № 5, maddə 420, № 9, maddə 857; 2013, № 10, maddə 1154, № 11, maddə 1331; 2019, № 7, maddə 1232, № 12, maddə 1929) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 8.11-ci bəndində "əlil" sözü "əlilliyi olan" sözləri ilə əvəz edilsin və həmin bəndə "uşaqların" sözündən əvvəl "18 yaşınadək" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1224; 2009, № 4, maddə 222, № 12, maddə 988; 2012, № 2, maddə 83, № 5, maddə 429; 2016, № 3, maddə 466; 2018, № 11, maddə 2269; 2019, № 7, maddə 1246) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası haqqında Əsasnamə"nin 3.6.3-cü yarımbəndində "əlil" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 8 iyul tarixli 796 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 614; 2011, № 2, maddə 85; 2017, № 7, maddə 1357) ilə təsdiq edilmiş "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. Cədvəl 1 - "Nüfuzedən səs-küyün yaşayış və ictimai binalarda, yaşayış tikililəri ərazisində, habelə insanların cəmləşdiyi digər yerlərdə səs təzyiqinin, səsin ekvivalent enerjisi və maksimal səviyyəsinin yolverilən normaları"nın 3-cü hissəsində "Qocalar və əlillər üçün internat-evlərinin" sözləri "Ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinin" sözləri ilə, 13-cü və 16-cı hissələrində ismin müvafiq hallarında "qocalar və əlillər üçün internat-evləri" sözləri ismin müvafiq hallarında "ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələri" sözləri ilə əvəz edilsin;

5.2. Cədvəl 2 - "Binaların otaqlarında vibrasiya təcillərinin yolverilən səviyyələri"nin 4-cü hissəsində "qocalar və əlillər üçün internat-evlərinin" sözləri "ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinin" sözləri ilə əvəz edilsin;

5.3. Cədvəl 3 - "Binaların otaqlarında vibrasiya sürətlərinin yolverilən səviyyələri"nin 4-cü hissəsində "qocalar və əlillər üçün internat-evlərinin" sözləri "ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinin" sözləri ilə əvəz edilsin;

5.4. Cədvəl 4 - "Binaların otaqlarında mütləq vibrasiya yerdəyişmələrinin yolverilən səviyyələri"nin 4-cü hissəsində "qocalar və əlillər üçün internat-evlərinin" sözləri "ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinin" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə" üzrə:

6.1.1. 1.1-ci bənddə, 2.1.3-cü və 3.1.53-cü yarımbəndlərdə ismin müvafiq hallarında "əlillər və sağlamlıq imkanları məhdud uşaqlar" sözləri ismin müvafiq hallarında "əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri ilə əvəz edilsin;

6.1.2. 3.1.34-cü yarımbənddə "əlillərin" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

6.1.3. 3.1.49-cu yarımbənddə (hər iki halda) ismin müvafiq hallarında "əlillər və sağlamlıq imkanları məhdud uşaqlar" sözləri ismin müvafiq hallarında "əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri ilə, "əlil kreslo-velo arabaları" sözləri "əlilliyi olan şəxslər üçün arabalar" sözləri ilə əvəz edilsin;

6.1.4. 3.1.50-ci yarımbənddə "əlillərin və sağlamlıq imkanları məhdud" sözləri "əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri ilə əvəz edilsin və həmin yarımbənddən "tibbi, peşə-əmək və sosial" sözləri çıxarılsın;

6.1.5. 3.1.51-ci yarımbənddə "əlillərin və sağlamlıq imkanları məhdud" sözləri "əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri ilə və "əlillərin" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

6.1.6. 3.1.54-cü yarımbənddə "əlillərin və sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatları ilə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların" sözləri "əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatları ilə əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

6.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə"nin 3.1.1-ci yarımbəndində "əlillərin" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419; 2019, № 5, maddə 847, № 12, maddə 1936) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.3.8-ci yarımbəndə "sağlamlıq imkanları məhdud" sözlərindən sonra "18 yaşınadək uşaqların" sözləri əlavə edilsin;

7.2. 2.5.1-ci yarımbəndə "sağlamlıq imkanları məhdud" sözlərindən sonra "18 yaşınadək" sözləri əlavə edilsin və həmin yarımbənddə "əlil kreslo-velo arabaları" sözləri "əlilliyi olan şəxslər üçün arabalar" sözləri ilə əvəz edilsin;

7.3. 2.5.2-ci yarımbənddə "uşaqlarla bağlı məlumat bazasını təşkil edir" sözləri "18 yaşınadək uşaqların reyestrini elektron formada aparır" sözləri ilə əvəz edilsin;

7.4. 2.5.3-cü (hər iki halda), 2.5.4-cü və 2.5.5-ci yarımbəndlərə "sağlamlıq imkanları məhdud" sözlərindən sonra "18 yaşınadək" sözləri əlavə edilsin;

7.5. 2.5.6-cı yarımbəndə "sağlamlıq imkanları məhdud" sözlərindən sonra "18 yaşınadək" sözləri əlavə edilsin və həmin yarımbənddə "əlillərin" sözü "əlilliyi olan şəxslər üçün" sözləri ilə əvəz edilsin;

7.6. 2.6.3-cü yarımbəndə "sağlamlıq imkanları məhdud" sözlərindən sonra "18 yaşınadək" sözləri əlavə edilsin və həmin yarımbənddə "sağlamlıq imkanları məhdud idmançıların" sözləri "əlilliyi olan idmançıların" sözləri ilə əvəz edilsin.

8. "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 4 mart tarixli 85-IVQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 420 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 4, maddə 289) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2012-ci il 6 iyun tarixli 648 nömrəli, “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, “Ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında” 2014-cü il 17 mart tarixli 128 nömrəli, “Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında” 2017-ci il 10 oktyabr tarixli 1624 nömrəli, “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 26 iyun tarixli 148 nömrəli, “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 10 dekabr tarixli 387 nömrəli, “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2019-cu il 29 yanvar tarixli 500 nömrəli və “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2019-cu il 29 may tarixli 713 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7) ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.12.3-cü və 3.12.4-cü yarımbəndlərdə “məhdud olan” sözləri “məhdud 18 yaşınadək” sözləri ilə əvəz edilsin;

1.2. 4.6.8-ci yarımbənddə “əlillərin, sağlamlıq imkanları məhdud” sözləri “əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri ilə əvəz edilsin;

1.3. 4.6.9-cu yarımbənddə hər üç halda “əlillərin” sözü “əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların” sözləri ilə əvəz edilsin;

1.4. 4.6.15-ci yarımbəndə “məhdud” sözündən sonra “18 yaşınadək” sözləri əlavə edilsin;

1.5. 4.13.5-ci yarımbənddə “o cümlədən fiziki cəhətdən qüsurlu şəxslərə” sözləri “əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2253; 2019, № 1, maddə 61, № 4, maddə 647) ilə təsdiq edilmiş “ASAN xidmət” mərkəzlərinin fəaliyyətinin təşkili və xidmətlərin göstərilməsi Qaydaları”nın 4.5-ci bəndinin ikinci abzasında “əlillər və sağlamlıq imkanları məhdud” sözləri “əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri ilə əvəz edilsin.

3. “Ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli 128 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 249; 2016, № 1, maddə 70; 2018, № 4, maddə 669; 2019, № 4, maddə 642) adında və 1-ci hissəsində “qrup” sözü “dərəcə” sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1624 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1791) ilə təsdiq edilmiş “Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi”nin 2.2.7-ci yarımbəndində “əlillərinə” sözü “ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi”nin 3.2.9-cu yarımbəndində “əlillər” sözü “əlilliyi olan şəxslər” sözləri ilə əvəz edilsin.

6. “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Fərmanla təsdiq edilmiş “DOST” mərkəzlərində göstərilən xidmətlərin siyahısı”nın “Xidmətlərin adı” sütunu üzrə:

6.1.1. 3-cü hissə üzrə:

1. 3.1-ci bəndə “sağlamlıq” sözündən əvvəl “18 yaşınadək uşaqların” sözləri əlavə edilsin;

2. 3.2.2-ci yarımbənddə “əlillərin” sözü “əlilliyi olan şəxslərin” sözləri ilə əvəz edilsin;

3. 3.4-cü bənddə “əlillərin və” sözləri “əlilliyi olan şəxslərin, o cümlədən” sözləri ilə əvəz edilsin;

6.1.2. 5-ci hissə üzrə:

1. 10.1-ci bənddə “əlil uşağına” sözləri “əlilliyi müəyyən edilmiş övladına” sözləri ilə əvəz edilsin;

2. 12.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“müharibə və ya 1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqlarına”;

3. 12.3-cü bənddə “II qrup əlil olmuş” sözləri “II dərəcə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

6.1.3. 7-ci hissə üzrə:

1. 7.6-cı bənddə və 7.6.3-cü yarımbənddə “əlillərinə” sözü “ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri ilə əvəz edilsin;

2. 7.6.1-ci, 7.6.2-ci və 7.6.4-cü yarımbəndlərdə “əlil olanlara” sözləri “əlilliyi müəyyən edilmiş şəxslərə” sözləri ilə əvəz edilsin;

3. 7.7-ci bənddə “əlil olmuş” sözləri “əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

4. 7.9-cu bənddə “qrup” sözü “dərəcə” sözü ilə əvəz edilsin;

6.2. həmin Fərmanla təsdiq edilmiş “DOST” mərkəzlərində xidmət göstərilməsi Qaydası”nın 3.3-cü bəndində “Əlillərin və” sözləri “Əlilliyi olan şəxslərin, o cümlədən” sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 90, № 11, maddə 1719) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2-ci hissənin 65-ci abzasında “əlillərə” sözü “əlilliyi olan şəxslərə” sözləri ilə və hər iki halda “əlil” sözü ismin müvafiq hallarında “əlilliyi olan şəxs” sözləri ilə əvəz edilsin;

7.2. 7.1.63-cü yarımbənddə “əlillərinin” sözü “ilə əlaqədar əlilliyi olan şəxslərin” sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 713 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 865) ilə təsdiq edilmiş “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası”nın 2.10.9-cu yarımbəndində “əlillər” sözü “əlilliyi olan şəxslərin” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2020-ci il*

# *Müdafiə Nazirliyi:* Azərbaycan Ordusu bundan sonra da düşmənin istənilən təxribatlarının qarşısını almağa qadirdir

Azərbaycanın Müdafiə Nazirliyi Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın fikirlərinə münasibət bildirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avqustun 19-da keçirilən mətbuat konfransında çıxış edən Ermənistanın sabiq prezidenti 2016-cı ilin aprel döyüşləri barədə danışarkən, guya Azərbaycan Ordusunun tərkibində Türkiyə və İsraildən hərbi təlimatçıların olması haqqında sərsəm fikir səsləndirib.

Nazirliyin açıqlamasında qeyd olunub ki, məhz Ermənistan silahlı qüvvələrində hərbi xidmətə çağırışçı və səfərbərlik ehtiyatlarının çatışmazlığı səbəbindən xarici ölkələrdən gətirilən muzdluların istifadə edilməsi praktikası geniş tətbiq olunur.

Aprel döyüşlərindən aldığı zərbənin təsirindən 4 il sonra qismən özünə gələn S.Sarkisyanın bəraət qazanmaq üçün bu cür cəfəng fikirlər səsləndirməsi heç də təəccüblü deyil. Belə ki, bir tərəfdən Ermənistan ordusunun həmin döyüşlərdəki məğlubiyyətinin fəsadları, digər tərəfdən isə parlament komissiyasının bu uğursuzluqların səbəb və səbəbkarlarını müəyyən edərək onlara ağır cəza vermək çağırışı sabiq prezidenti belə bir addım atmağa məcbur edib.

“Bildiririk ki, bu gün Azərbaycan Ordusu ölkəmizdə və dünyanın ən nüfuzlu hərbi təhsil müəssisələrində ixtisaslaşmış peşəkar hərbi qulluqçularla komplektləşdirilmiş və arsenalında ən müasir silah-sursat, hərbi texnikası olan ordudur. S.Sarkisyanın səsləndirdiyi yalan və gülünc fikirlər onun öz tərəfdaşları, erməni ictimaiyyəti qarşısında itən nüfuzunu bərpa etməyə, xüsusilə də parlament komissiyasının qəbul edəcəyi qərarlara təsir etməyə yönələn uğursuz cəhddir. Erməni xalqı bilməlidir ki, Ermənistan ordusunun Aprel döyüşlərindəki alçaldıcı məğlubiyyətinin günahkarı məhz S. Sarkisyan və onun hərbi-siyasi rejimi olub.

Bir daha bildiririk ki, Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın hazırkı hakimiyyətinin törətdiyi hərbi avantüranın qarşısını qətiyyətlə alan Azərbaycan Ordusu bundan sonra da düşmənin istənilən təxribatlarının qarşısını almağa qadirdir”, - deyə Müdafiə Nazirliyinin açıqlamasında qeyd edilib.

# Azərbaycan ilə Çin arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Avqustun 19-da Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Çin Xalq Respublikasının ölkəmizdəki səfiri xanım Qo Minlə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov Azərbaycan ilə Çin arasında qarşılıqlı anlaşmaya və etimada əsaslanan ən yüksəksəviyyəli siyasi dialoqun mövcud olduğunu qeyd edib. Ölkələrimiz arasında qarşılıqlı əməkdaşlıq əlaqələrindən bəhs edən nazir Azərbaycan ilə Çin münasibətlərinin siyasi, iqtisadi-ticari, humanitar, səhiyyə və təhsil sahələrində inkişafından məmnunluğunu ifadə edib.

Səfir Qo Min Çinin Xarici İşlər naziri Vanq Yinin səmimi salamlarını və təbriklərini nazir Ceyhun Bayramova çatdırıb.

Görüşdə tərəflər ikitərəfli və çoxtərəfli formatlarda, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi üzrə fikir mübadiləsi aparıblar.

Ölkə rəhbərləri səviyyəsində səfərlərin Azərbaycan ilə Çin arasında əlaqələrin inkişafına təkan verdiyi qeyd olunub.

Tərəflərin dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmətlə bağlı prinsipial mövqeyi vurğulanıb.

Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsi barədə qarşı tərəfə məlumat verən nazir xüsusilə bu il iyulun 12-də Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən əvvəlcədən planlaşdırılan təxribat barədə danışıb. Ermənistanın bu növbəti təxribatının ölkənin hərbi-siyasi məqsədlərinə xidmət etdiyini və münaqişənin həlli üzrə substantiv danışıqlara mane olmaq məqsədi güddüyünü bildirib.

Görüşdə səfir Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmətin ifadə olunması ilə bağlı Çinin qəti mövqeyini diqqətə çatdırıb.

Xanım səfir Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkəmizin fəaliyyətinin, xüsusilə pandemiya ilə əlaqədar Azərbaycan Prezidentinin irəli sürdüyü bir sıra qlobal təşəbbüslərin Çin tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.

Tərəflər habelə qlobal səviyyədə COVID-19 pandemiyası ilə mübarizənin aparıldığı dövrdə beynəlxalq əməkdaşlığın və həmrəyliyin əhəmiyyətini qeyd ediblər. Çin tərəfindən göstərilən texniki dəstəyi vurğulayan nazir bunun Azərbaycan və Çin xalqları arasında dostluq ənənələrinə sadiqliyin bariz nümunəsi olduğunu qeyd edib, bu çətin günlərdə göstərilən dəstəyə və həmrəyliyə görə minnətdarlığını bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə müzakirələr aparılıb.

# Azərbaycan Türkiyənin regionda sülhün və sabitliyin təmin olunmasına yönəlmiş bütün addımlarını dəstəkləyir

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Türkiyənin Şərqi Aralıq dənizində fəaliyyəti və bu xüsusda Ermənistan XİN-in açıqlaması ilə bağlı KİV-in sualını cavablandırıb.



XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Leyla Abdullayeva bununla bağlı deyib: “Azərbaycan tərəfi tarixən Aralıq dənizi bölgəsinin inkişafı və tərəqqisində mühüm rol oynamış qardaş Türkiyənin regionda sülhün və sabitliyin təmin olunmasına yönəlmiş beynəlxalq hüquqa söykənən bütün addımlarını qətiyyətlə dəstəkləyir və mövcud gərginliyin tezliklə həllini tapacağına ümidini ifadə edir.

Bu xüsusda üçüncü tərəflərin vəziyyətdən özlərinin bölgə dövlətlərinə olan ədavət və qərəzli yanaşması üçün fürsət kimi istifadə etməsi cəhdləri qətiyyətlə rədd edilməlidir. Ermənistan tərəfinin Türkiyəyə qarşı əsassız ittihamlar ehtiva edən mövqeyi və bəyanatları Aralıq dənizi hövzəsində müşahidə olunan həssas vəziyyətdən özünün dar siyasi maraqları üçün sui-istifadə etmək cəhdi kimi pislənilməli və rədd edilməlidir”.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edirlər

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 40 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi, Əsrik Cırdaxan və Ağbulaq kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Yarımca, Ağdam rayonunun Şıxlar, Acarlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Əsas kapitala 7,5 milyard manatdan çox vəsait yönəldilib

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyul aylarında əsas kapitala 7 milyard 588,3 milyon manat, yaxud 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz çox vəsait yönəldilmişdir.

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 22,9 faiz artmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 9,6 faiz azalmışdır. İstifadə olunmuş vəsaitin 5 milyard 104,7 milyon manatı və ya 67,3 faizi məhsul istehsalı sahələrinə, 1 milyard 745,9 milyon manatı (23 faizi) xidmət sahələrinə, 737,7 milyon manatı (9,7 faizi) isə yaşayış evlərinin tikintisinə sərf edilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 4 milyard 692,5 milyon manatını (61,8 faizini) daxili vəsaitlər təşkil etmiş və bu vəsaitlərin 4 milyard 703,9 milyon manatı (62 faizi) bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 59,7 faiz, büdcə vəsaitləri 22, bank kreditləri 6,2, əhalinin şəxsi vəsaitləri 5,8, digər vəsaitlər 4,2, büdcədənkənar dövlət fondlarının vəsaitləri isə 2,1 faiz təşkil etmişdir.

7 ay ərzində Bakıda “Yeni klinika” tibb müəssisəsi, 3 saylı DOST mərkəzi, modul tipli xəstəxana kompleksi, modul tipli hospital, “Böyükşor” və “Əhmədli” elektrik yarımstansiyaları, Naxçıvan Muxtar Respublikasında 2 ambulatoriya-poliklinika müəssisəsi, Sumqayıt şəhərində 2 tibbi maska istehsalı müəssisəsi, qoruyucu kombinezonların istehsalı müəssisəsi, modul tipli xəstəxana, Gəncə şəhərində tikinti materialları istehsalı zavodu, Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusu, 200 çarpayılıq xəstəxana binası, Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusu, Mingəçevir şəhərində Dövlət Rəmzləri Muzeyi, Şəki şəhərində modul tipli xəstəxana, 200 çarpayılıq xəstəxana binası, Abşeron rayonunda modul tipli xəstəxana, Ağcabədi rayonunda “ASAN Həyat” kompleksi, dənli bitki toxumlarının emalı zavodu, Ağstafa rayonunda “Azərxalça” ASC-nin filialı, Aqrar Sənaye Kompleksi, Balakən rayonunda regional “ASAN xidmət” mərkəzi, Balakən Şəhər Uşaq İncəsənət Məktəbinin yeni binası, Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi, Goranboy rayonunda “Azərxalça” ASC-nin filialı, İsmayıllı rayonunda modul tipli xəstəxana, Kürdəmir rayonunda “ASAN Həyat” kompleksi, “Azərxalça” ASC-nin filialı, Qazax rayonunda əhəng zavodu, “Azərxalça” ASC-nin filialı, Qəbələ rayonunda modul tipli xəstəxana, Qobustan rayonunda modul tipli xəstəxana, Tərtər rayonunda Olimpiya İdman Kompleksi, Dövlət Rəmzləri Muzeyi, “Azərxalça” ASC-nin filialı, Tovuz rayonunda “ASAN Həyat” kompleksi, “Azərxalça” ASC-nin filialı, Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyi, Tarix-Diyarşünaslıq Muzeyi, Dövlət Rəmzləri Muzeyi, Şəmkir rayonunda “Şəmkirçay” Sutəmizləyici Qurğular Kompleksi və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

# Onlayn biznes forumda sosial müdafiə sahəsində aparılan islahatlar və bu sahədə innovativ yeniliklər barədə məlumat verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri Himalay Məmişovun iştirakı ilə “Caspian Energy Club”un onlayn biznes forumu keçirilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə “Caspian Energy Club”un sədri və baş icraçı direktoru Telman Əliyev biznes forumların əhəmiyyətini və böyük maraq doğurduğunu və tədbirin də sosial müdafiə sahəsində islahatlara həsr olunduğunu qeyd edib.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, sosial sahədə aparılan islahatlar barədə məlumat verən H.Məmişov pensiya və müavinətlərin, təqaüdlərin artırılması sahəsində atılan mühüm addımları, bu sahəyə ayrılan vəsaitlərdəki ciddi artımı, pensiya, müavinət və təqaüdlərin təyinatının elektronlaşdırıldığını diqqətə çatdırıb. Fondun publik hüquqi şəxsə çevrildiyini bildirən H.Məmişov bunun, ilk növbədə, qurumun fəaliyyətində inzibatçılıqdan əhaliyə xidmət modelinə keçidi təmin etdiyini vurğulayıb.

Sədr fondda struktur islahatlarını və bu islahatların optimal və şəffaf idarəçilik, əhaliyə xidmətin keyfiyyətinin artırılması baxımından müsbət nəticələrindən danışıb, sosial müdafiə sahəsində xərclərin optimallaşdırılması, şəffaflığın təmin edilməsi və əsassız xərclərin qarşısının alınması sahəsində görülən işlərdən bəhs edib. O, ciddi maliyyə qənaətləri formalaşdırıldığını və 238 milyon manatın qənaət olunmaqla büdcəyə qaytarıldığını bildirib.

H.Məmişov sosial təminat sahəsində qanunvericiliyə edilən, həssas qrupların daha dolğun təminatına şərait yaradan dəyişikliklər barədə də məlumat verib.

Tədbirdə verilən məlumatlar, habelə pensiya, müavinət və təqaüdlərin proaktiv təyinatı sahəsində innovativ yeniliklər iştirakçılar tərəfindən maraqla qarşılanıb, iştirakçıların sualları cavablandırılıb. Ölkənin aparıcı şirkətlərinin təmsil olunduğu forumda sığortaedənləri maraqlandıran məsələlərə dair fikir mübadiləsi aparılıb.

**İlham Əliyevin yaratdığı Cənubi Qafqazın ən güclü ordusu Ermənistanın cəbhə xəttindəki istənilən təxribatına layiqli cavab verəcək**



# Qətiyyətli Sərkərdə, güclü ordu, prinsipial mövqe

*Əvvəli 1-ci səh.*

Görəsən qondarma rejimin rəhbərinin son "hədəsi" ilə bağlı həmsədrlərin indiyədək susqun qalmasının səbəbi nədir?! Əgər Azərbaycan tərəfindən hər hansı rəsmi şəxs Ermənistan ictimaiyyətini narahat edən fikir səsləndirsəydi, yəqin ki, onlar indiyədək bir neçə etiraz bəyanatı yaymışdılar.

Ona görə də Azərbaycan xalqının haqlı narazılığı başa düşüləndir. Ölkə ictimaiyyəti, həmçinin siyasi ekspertlər də hesab edirlər ki, həmsədrlərin regiona turist xarakterli səfərləri yalnız Ermənistanın maraqlarına xidmət edir.

### İşğalçı sülh istəmir, təkbətək savaşdan isə qorxur...

Bu təxribatlar bir daha təsdiq edir ki, Ermənistan məsələnin sülh yolu ilə həllində maraqlı deyil. Təbii ki, sülh istəməyən ölkənin, eyni zamanda, Azərbaycanla təkbətək savaş aparmağa nə hərbi gücü, nə də cəsarəti var. Əgər olsaydı, Prezident İlham Əliyevin bu ölkənin rəhbərliyinə ünvanladığı "Gəl bizimlə təkbətək vuruş, təkbətək, baxaq görək bunun axırı nə olacaq" mesajından sonra hər hansısa bir qərar verərdi.

İşğalçının bu mesaj qarşısında acizliyi bir daha təsdiq etdi ki, bu ölkə Azərbaycanla təkbətək savaşdan qorxur. Çünki ermənilər yaxşı bilirlər ki, ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu qarşısında bir gün belə duruş gətirə bilməzlər, Aprel, Günnüt, Tovuz döyüşlərində olduğu kimi.

Son hərbi əməliyyatların da ən mühüm reallığı növbəti dəfə Azərbaycanın hərbi üstünlüyünün təsdiqidir. Təxribatın qarşısının alınması, tərəflərin həyata keçirdiyi əməliyyatların nəticəsi və keyfiyyəti Azərbaycanın müasir döyüş imkanları baxımından Ermənistandan dəfələrlə güclü olduğunu göstərir. Azərbaycanın dəqiq, yüksək və qarşısıalınmaz zərbə gücünə malik müasir silahlara sahib olması və döyüşlərdə bunun az bir hissəsindən istifadə edərək düşmənə ağır zərbələr vurması Ermənistan tərəfində daim dərin təlaş və narahatlıq yaradır.

Bunun ardınca isə Azərbaycanla qardaş Türkiyə Respublikasının ordularının birgə təlimləri həm Ermənistana, həm də onun havadarlarına növbəti mesaj oldu. İki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələrinin cəlb edildiyi hərbi təlimlər Ermənistanın siyasi-hərbi dairələrində ciddi narahatlıqla qarşılandı. Ermənistanın hərbi-siyasi dairələrindən səslənən fikirlər də göstərdi ki, Azərbaycan-Türkiyə birgə təlimləri düşmən ölkəni ciddi şəkildə təşvişə salıb.

### Dünyanın 50 ən güclü ordusu sırasında

Əlbəttə ki, Türkiyə kimi böyük dövlətin ordusu ilə birgə hərbi təlimlərin keçirilməsi Azərbaycan Ordusunun ən müasir döyüş imkanlarını mənimsəməsində böyük rol oynayır.

Eyni zamanda Silahlı Qüvvələrimizin tez-tez həyata keçirdiyi hərbi təlimlər düşmənin dincliyini pozan əsas amillərdən biridir. Nəticələr göstərir ki, ordumuzun bütün bölmələri qarşısında dayanan vəzifələri layiqincə icra etməyə qadirdir. Hazırda Cənubi Qafqazın ən qüdrətli hərbi gücünə malik Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu sırasında yer alır.

Bu gün 102 yaşlı Azərbaycan Ordusu son 17 il ərzində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında daha da qüdrətlənib. Dövlət başçısı təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən orqan və qurumlar içərisində, ilk növbədə, ölkəmizin hərbi təhlükəsizliyinin qarantı olan ordu quruculuğu və Silahlı Qüvvələrin yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi istiqamətində çox gərgin, səmərəli və məqsədyönlü iş aparıb və yenə də aparmaqdadır.

Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşıda dayanan əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsidir. Bundan irəli gələrək Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində ötən illərdə ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsi üçün bu sahədə qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirilib. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırılıb. Bu mənada inkişafın Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri də ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətini artırmasıdır.







Hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda, təlimlərdə də görüblər. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir. Qürur doğuran hal odur ki, bu gün dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda var.

Bu gün Azərbaycanın hərbi sənaye kompleksi də formalaşıb. Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Ölkəmizdə son illərdə formalaşan və dinamik templə inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edir.

Bütün bunlar göstərir ki, Azərbaycanda ordu quruculuğu sahəsində aparılan islahatlar kompleks şəkildə həyata keçirilir. Həm ordunun arsenalına ən modern silahlar daxil edilir, həm qoşun növlərinin döyüş qabiliyyəti artırılır, həm də hərbçilərin sosial şəraiti yaxşılaşdırılır. Bütün bunlar cənab İlham Əliyevin Ali Baş Komandan kimi əzmkar fəaliyyətinin daha bir əməli nəticəsidir.

Bütün bunlara əsaslanaraq əminliklə deyə bilərik ki, bu gün istər hərbi müstəvidə, istərsə də diplomatik sferada Azərbaycan böyük üstünlüyə malikdir. Ermənistan danışıqlar prosesini uzatmaq üçün nə qədər təxribata əl atacaqsa, hər zamankı kimi layiqli cavablarını alacaqlar. Əlbəttə ki, düşmənin bu təxribatlarla status-kvonu saxlamaq istəyi də çox çəkməyəcək. Danışıqlar yenə də nəticəsiz qalacaqsa, Azərbaycan Ordusu öz sözünü deyəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Gələn il «Abşeron» yatağından ilk qazın əldə olunacağı gözlənilir

*Əvvəli 1-ci səh.*

Bu ilin yanvar ayında Xoşbəxt Yusifzadənin 90 illik yubileyi münasibətilə keçirilən mərasimdə Prezident İlham Əliyev "Abşeron"un salnaməsini xatırlayaraq demişdir: "1997-ci ildə "Abşeron" yatağı üzrə kontrakt imzalanandan sonra seysmik işləri aparılmışdı və kəşfiyyat quyusunun yeri müəyyən edilmişdi. Xoşbəxt müəllim də o vaxt xarici tərəfdaşlara demişdi ki, onlar quyunun yerini səhv seçiblər, orada heç bir ehtiyat olmayacaq. Onlar da dedilər ki, yaşlı kişidir, bizim seysmik qurğularımız, mütəxəssislərimiz, minlərlə işçimiz, milyardlarla dollar ticarət dövriyyəmiz var, kapitallaşdırmamız 10 milyardlarla ölçülür. İndi bir geoloq burada nə isə deyir. Əhəmiyyət vermədilər və peşman oldular. Çünki onlar Xoşbəxt müəllimə qulaq asmadılar, quyunu qazdılar və o da boşa çıxdı. Beləliklə, müqaviləyə xitam verildi və onlar da məcbur olub Azərbaycandan, o yataqdan çıxdılar. Amma ondan bir neçə il sonra başqa bir şirkət "Abşeron" yatağına maraq göstərdi. Yenidən kontrakt imzalandı, kəşfiyyat quyusunun yeri düzgün seçildi və böyük ehtiyatlar aşkarlandı".

Beləliklə, indi mütəxəssislərimiz "Abşeron"da "Total" şirkəti ilə birgə uğurlu iş aparırlar. Yəni 2009-cu il fevralın 27-də SOCAR-la "Total" arasında Xəzərin dərin sularında yerləşən "Abşeron" bloku üzrə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) imzalandı. 2011-ci il sentyabrın 1-də isə "Abşeron"un Kəşfiyyat, İşlənmə və HPBS-yə uyğun olaraq kəşfiyyat dövrü ərzində operator qismində çıxış edən "Total E & P Absheron" Azərbaycanın bu dəniz blokunda iri qaz yatağının aşkarlandığını bildirdi. 2017-ci ilin fevralında layihənin işlənmə proqramı təsdiq edildi.

"Abşeron" bloku Bakıdan 100 kilometr aralıda, Xəzərdə suyun 500 metr dərinliyində yerləşir. Birinci quyunun qazılmasından sonra aparılan araşdırmaların nəticələri burada zəngin qaz və kondensat ehtiyatlarının olduğunu təsdiq etmişdir. Ərazidə hərəkət edən layların, qaz tərkibli dayaz təbəqələrin, dərinliklərdə yüksək təzyiqin və palçıq vulkanlarının olması işlərin gedişinə texniki maneələr törədir. Təhlükəsiz istehsalat mühitinə nail olmaq üçün bu amillərlə bağlı tektonik hərəkətlər xüsusi dizayn və mühəndis işləri tələb edir. Lakin çətinliklər yataqda çalışan mütəxəssislərin bilik və səriştəsi sayəsində məharətlə aradan qaldırılır.

Yatağın işlənməsi üçün dəniz və quruda geotexniki və geofiziki, eləcə də meteoroloji və topoqrafik məlumatlar toplanmışdır. Bu araşdırmalar həyata keçirilərkən sosial sahəyə və ətraf mühitin mühafizəsinə dair tələblərə ciddi riayət edilmişdir.

Tədqiqatlar aparıldıqdan sonra "Abşeron" yatağının Erkən Hasilat Sxemi əsasında işlənməsi qərara alınmışdır. Bu sxem sualtı quyunun dayaz yerlərdə Neft Daşlarının yaxınlığındakı qəbuledici platformaya qoşulmasına əsaslanır. Burada qaz mayedən ayrılacaq, mavi yanacaq və kondensat SOCAR-ın mövcud infrastrukturu ilə nəql olunacaq. Qaz yerli bazara göndəriləcək, kondensat isə BTC neft kəmərinə vurulacaq.

2018-ci ilin fevral ayında Ümummilli Lider Heydər Əliyevin adını daşıyan qazma qurğusu "Abşeron" yatağında işə başlamışdır. Beləliklə, indi Azərbaycanın neft-qaz sənayesi "Abşeron"dan hasilatın əldə olunacağı kimi mühüm hadisənin ərəfəsindədir.

Bu il avqustun 10-da "Qarabağ" yatağında quraşdırılacaq stasionar dəniz özülünün əsas hissələrindən birinin - dayaq blokunun Xəzərə yola salınmasında iştirak edən Prezident İlham Əliyev qurğu ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına verdiyi müsahibədə demişdir: "Gələn il "Abşeron" qaz-kondensat yatağından ilk qazın hasilatı gözlənilir. "Abşeron" yatağının işlənilməsinin iki mərhələsi olacaqdır. Birinci mərhələ nəticəsində 1,5 milyard kubmetr qaz hasil ediləcək və bu qaz Azərbaycanda istehlak olunacaq. Çünki artan sənaye potensialımız diktə edir ki, bizə əlavə resurslar lazımdır. Ona görə 1,5 milyard kubmetr qaz ölkə daxilində istehlak olunacaq. Biz "Abşeron" yatağının ikinci mərhələsinin başlanmasına da yaxınlaşırıq. Orada hasilat yəqin ki, 3-4 dəfə artıq olacaqdır. Bu da bizim qaz potensialımıza müsbət təsir göstərəcəkdir".

Qeyd edək ki, "Abşeron" layihəsində tərəfdaşımız olan "Total" şirkəti Bakıda ofisini 1996-cı ildə açmış və həmin vaxtdan kəşfiyyat layihələrində iştirak etməyə başlamışdır. O vaxtdan şirkət iştirakçılarının hamısı üçün qarşılıqlı şəkildə faydalar gətirən strateji layihələrə qoşularaq ölkəmizlə uzunmüddətli tərəfdaşlığın təməlini qoymuşdur. "Total", eyni zamanda, üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan BTC əsas ixrac neft kəmərinin 11 səhmdarından biridir, burada 5 faiz iştirak payına malikdir.

"Abşeron" dünyanın 130-dan çox ölkəsində fəaliyyət göstərən bu şirkətin Azərbaycanla tərəfdaşlığını daha da möhkəmləndirmiş və uzun illər davam edəcəyinə zəmin yaratmışdır. Bu da ümumiyyətlə, xarici investorların ölkəmizin neft-qaz senayesinə marağının azalmadığının, əksinə, getdikcə artdığının daha bir təsdiqidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Paşinyan Ermənistanın çöküşünü sürətləndirir

## Pandemiyanın ikinci dalğası başlayacağı təqdirdə işğalçı ölkənin məhvi qaçılmaz sayılır

*Əvvəli 1-ci səh.*

Bununla yanaşı, Ermənistanın xarici investisiyalar üzünə həsrət qalan dövlətlərdən biri olması, iqtisadiyyatının bir neçə məmur oliqarxın əlində cəmləşməsi, inhisarçılığın, korrupsiya və rüşvətxorluğun dərin kök salması da sözügedən ölkəni problemlər məngənəsində boğan əsas faktorlardandır.

Diqqət çəkən daha bir məqam Ermənistanın xaricdən asılı olmasıdır. Hesab edilir ki, yeni maliyyə böhranı kontekstində xarici asılılıq amili, ilk növbədə, sadə əhaliyə mənfi istiqamətdə çox ciddi təsir göstərəcək. Əsas səbəb Ermənistanda qalan azsaylı əhalinin böyük əksəriyyətinin xaricdən göndərilən pullar sayəsində yaşayışlarını sürdürməsidir. Lakin son təhlillər göstərir ki, artıq Ermənistana xaricdən göndərilən pulların həcmində yenidən azalma qeydə alınır. Müxtəlif xarici ölkələrdə çalışan ermənilər əvvəlki kimi Ermənistanda qalan yaxınlarına pul göndərməkdə çətinlik çəkirlər. Ermənistan mediası yazır ki, yaranmış vəziyyətdə əhalinin gündəlik tələbat mallarına olan ehtiyacını minimal səviyyədə belə ödəməsi ciddi çətinliyə çevrilir.

Dövlətin maliyyə imkanlarının yoxluğu, artan xarici borclar da Ermənistana müsbət heç nə vəd etmir. Əksinə, beynəlxalq təşkilatlar, müxtəlif xarici dövlətlər Ermənistana yeni borclar verilməsinə indi böyük ehtiyatla yanaşır. Çünki Ermənistan əvvəl aldığı xarici borcların qaytarılmasında böyük çətinliklər yaşayır, eyni zamanda, bu ölkənin həmin borclar əvəzinə verə biləcəyi digər hər hansı bir resursu da yoxdur.

İndi Ermənistanda belə hesab olunur ki, mövcud problemlərin meydana gəlməsi və dərinləşməsində baş nazir Nikol Paşinyan iqtidarının yarıtmaz siyasəti əsas rol oynayır. Məhz bu siyasət son iki ildə Ermənistanı siyasi və iqtisadi müstəvidə keçilməz dalana dirəyib. O da vurğulanır ki, hakimiyyətdə təmsil olunan məmurların koronavirus fonunda yaratdıqları korrupsiya və rüşvət piramidası iqtisadiyyatın inkişafını əngəlləyən əsas faktorlardan biri olaraq qalmaqdadır.

"4rd.am" saytı yazır ki, ilin əvvəlindən, xüsusilə də mart ayından bəri ölkə paytaxtında xeyli sayda müəssisə, şirkət və səhmdar cəmiyyət, habelə biznes və ticarət obyektləri, kiçik və orta sahibkarlar fəaliyyətlərini dayandırıblar: "İlin ilk yarısında isə təkcə paytaxt Yerevanda iş yerini itirmiş insanların sayı 200 mini ötüb. İnfrastruktur layihələri isə bütünlüklə diaspor tərəfindən maliyyələşdirilən bəzi təmir-rekonstruksiya və inşaat proqramları, habelə mənzil-kommunal təsərrüfatı ilə bağlı kiçik layihələrdir".

Ermənistanın özündə o da dərk edilir ki, ölkənin problemlər məngənəsində boğulmasının əsas səbəblərindən biri də Dağlıq Qarabağ münaqişəsinin mövcudluğudur. Məhz bu münaqişə və Ermənistanın təcavüzkar siyasəti ölkənin sürətlə geriləməsinə səbəb olub. Digər tərəfdən, Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən münaqişənin indiyə qədər öz həllini tapmaması regional sülhə də böyük təhlükə yaradır. Təcavüzkar siyasətindən əl çəkməməsi Ermənistanı beynəlxalq miqyasda ciddi tənqid hədəfinə çevirir.

Bütün bunlar bir daha onu göstərir ki, sosial-iqtisadi sferada böyük problemlər yaşayan Ermənistan regional sülh və inkişafa öz işğalçılıq siyasəti ilə böyük təhlükə yaradır. Bu səbəbdən Ermənistanın işğal siyasətinə son qoyulması üçün bu ölkəyə beynəlxalq birlik tərəfindən daha sərt formada təzyiqlər göstərilməsi vacib sayılır.

Bu arada onu da qeyd edək ki, Ermənistan hakimiyyəti ölkədə Rusiya telekanallarının yayımını dayandırmağa start verib. Belə ki, erməni saytları yaxın günlərdə Rusiyanın Ermənistanda geniş izləyicisi olan əsas aparıcı kanallarını seyr edə bilməyəcəkləri barədə məlumatlar yerləşdiriblər. Maraqlıdır ki, Nikol Paşinyan rejimi bu qərarı ictimai multipleksdə yalnız erməni telekanallarının olması ilə əlaqələndirir. Qeyd edək ki, Ermənistanın ingilisdilli telekanalların, məsələn, ölkədə sıfır auditoriyası belə olmayan CNN-in yayımlanmasını çoxları Nikol Paşinyan rejiminin Avropaya yaltaqlanmaq məqsədi daşıdığını vurğulayır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR



# Su bol olanda, məhsul da bol olur

*Əvvəli 1-ci səh.*






Burada, ilk növbədə, diqqətimizi çəkən idarə üçün inşa edilmiş bina oldu. Müasir üslubda tikilmiş və bütün standartlara cavab verən binada bizi idarənin rəisi İlqar Məhərrəmov qarşıladı. Binaya maraqla baxdığımızı görüb əlavə məlumatlar da verərək dedi ki, bu, Respublika Meliorasiya və Su Təsərrüfatı ASC-nin təşəbbüsü ilə inşa edilib. Burada bütün işçilər üçün ayrıca otaqlar, akt zalı, istirahət otaqları və s. var.

İdarə binası ilə tanışlıqdan sonra söhbətimizi əsas məsələyə yönəltdik. İdarə rəisi dedi ki, yay aylarında rayonda su problemi olsa da, kollektiv onun öhdəsindən layiqincə gəldi. Bunun da əsas səbəblərindən biri köhnə arx və kanalların vaxtında lildən təmizlənməsi oldu. Su qıtlığı nəzərə alınaraq arxların və kanalların dəhnələri şit və digər vasitələrlə möhkəmləndirildi. Maşın və mexanizmlərin gücü ilə 221 min kubmetr sahədə təmizləmə işləri görüldü, sel və daşqınların qarşısını almaq üçün Gəncəçay, Kürəkçay və Qoşqar çaylarının məcralarında təmizlik işləri aparıldı. Nadel, Mollaosman, Qızılca və Bəhrəmbağ arxları və kanallarının, dəhnələri beton bloklarla möhkəmləndirildi. Bundan başqa, 114 min kubmetr həcmində çay məcrasında tənzimləmə işləri görüldü. 20 ədəd hidrotexniki qurğu, 14 ədəd hidropost cari təmir edildi, arx və kanallarda 14 min kubmetr ərazi kol-kosdan təmizləndi, boru kəmərlərinin 1,5 kilometr uzunluğunda, beton kanalların isə uzunluğu 2,5 kilometrədək olan hissəsində təmir işləri aparıldı. Xanlar və Xan arxlarında da cari təmir işləri görülərək əkin sahələrinin suvarılması təmin edildi.



Öyrəndik ki, yarım ildə idarənin balansında olan meliorasiya və irriqasiya sistemlərinin normal saxlanılması və qəzasız fəaliyyəti təmin edilmişdir. Söz yox ki, həyata keçirilən bu tədbirlər öz bəhrəsini vermiş, Göygöl rayonu ərazisində 14467 hektar əkin sahələrinin suvarılmasında heç bir problem yaşanmamışdır. Belə ki, yarım ildə 2872 hektar sahədə taxıl, 3082 hektar sahədə yem, 735 hektar sahədə bostan və tərəvəz bitkilərinin, 965 hektar sahədə çoxillik bitkilərin, 150 hektar sahədə şəkər çuğundurunun, 804 hektar sahədə günəbaxanın, eləcə də 2733 hektar həyətyanı sahələrin suvarılması təmin edilmişdir.

İdarənin kollektivi əkin sahələrinin vaxtında suvarma suyu ilə təmin edilməsi məqsədilə digər tədbirlər də həyata keçirmişdir. Son bir neçə ildə investisiya vəsaitləri hesabına idarənin balansında olan 10 nasos stansiyasından 9-u yenidən bərpa edilərək müasir avadanlıqlarla təchiz edilmişdir. Bundan başqa, qazılan yeni subartezian quyuları hesabına suvarılan əkin sahələrinin həcmi xeyli genişlənmişdir.

Şəmkirçay dəryaçasının istifadəyə verilməsi isə uzun illər istifadəyə yararsız olan torpaq sahələrinin əkinə yararlı hala salınmasına imkan yaratmışdır. Dəryaçadan ayrılan kanalın Göygöl rayonu ərazisindən keçən hissəsində mövcud olan torpaq sahələri artıq əkinə yararlı vəziyyətə gətirilmişdir ki, bu da həm məhsul istehsalının həcminin artırılmasına, həm də əhalinin məşğulluğunun təminatına müsbət təsir göstərmişdir.

Hazırda Göygöl Suvarma Sistemləri İdarəsinin kollektivi əkin sahələrinin suvarma suyu ilə təminatı ilə yanaşı, digər işlərlə də məşğuldur. 2020-ci ilin birinci yarısında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, Ərəbli kanalının Gəncə-Göygöl avtomobil yolunun kəsişdiyi ərazidə mövcud olan hissəsinin beton üzlüklə üzlənməsi başa çatdırılmışdır. Hazırda idarənin kollektivi Xan arxı kanalının Üçtəpə ərazisindən keçən hissəsində mövcud torpaq kanalının beton üzlüklə üzlənməsi işlərini həyata keçirir. Artıq işlərin çox hissəsi görülmüşdür. Bu günlərdə yeni beton kanal istifadəyə veriləcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Sumqayıtda yeni işıqlandırma sistemi quraşdırılır

**Sumqayıt şəhərində ən qabaqcıl və müasir texnologiyalardan istifadə etməklə enerjiyə qənaətə imkan verən və səmərəliliyi artıran, küçə və dalanların fasiləsiz enerji ilə təmin olunmasına xidmət edən işıqlandırma sistemlərinin quraşdırılmasına başlanılıb.**








Şəhərdə görülən işlər dövlət başçısının imzaladığı sərəncama əsasən aparılır. Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində respublikanın hər yerində olduğu kimi, Sumqayıtda da mühüm infrastruktur layihələri həyata keçirilir. Şəhərdə sosial və kommunal xidmətlərin həcmi və keyfiyyəti yaxşılaşdırılır, abadlıq-quruculuq işləri geniş vüsət alır.

Görülən tədbirlərin davamı kimi əhalinin elektrik enerjisinə olan tələbatında, həmçinin prospekt və küçələrin işılandırılması, onların idarə edilməsi, nəzarət, ölçmə və hesabatlılıq, enerji sərfiyyatının və xidmət xərclərinə qənaət edilməsi aktual məsələ kimi önə çıxarılır. Bütün bunlar işıqlandırma səviyyəsini proqramlaşdırmağa, intellektual idarəetməyə əsaslanan sistemlərin quraşdırılması isə qənaət və səmərəliliyə imkan verəcək.

Bütün bu problemlərin həlli üçün Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə 6 milyon manat ayrılıb. Belə bir işıqlandırma sisteminin quraşdırılması şəhərin 70 küçə və dalanlarında aparılacaqdır. Bir mərkəzdən idarə olunan led lampalardan ibarət işıqlandırma sistemi yaradılacaq ki, bu da əvvəlkinə nisbətdə 70-80 faiz enerjiyə qənaət deməkdir. Hazırda Səməd Vurğun, İnşaatçılar, Metallurq, Sülh, Maksim Qorki küçələrində və stansiya Sumqayıtda bu işlər aparılır.

Şəhərdə bu sahələrdə söküntü işləri tamamlanmaq üzrədir. Ümumiyyətlə, təmir və bərpa işlərinin tam olaraq oktyabr ayında yekunlaşacağı nəzərdə tutulub. Pilot layihə çərçivəsində şəhər ağıllı işıqlandırma sistemi ilə təchiz olunacaq.

Qeyd edək ki, layihə Prezident İlham Əliyevin 2 iyun 2020-ci ildə imzaladığı sərəncam əsasında reallaşır. Müasir və yeni işıqlandırma sistemləri funksionallığı ilə yanaşı, şəhərin estetik görünüşünü dəyişəcək və onun simasını gözəlləşdirəcəkdir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## 265 arıçıya subsidiya veriləcək

Bu il Ağdam rayonunda arıçılıqla məşğul olan 265 arıçıya saxladıqları 4629 arı ailəsinə görə dövlət büdcəsinin vəsaiti hesabına hər arı ailəsinə 10 manat hesabı ilə 46 min 290 manat subsidiyanın verilməsi nəzərdə tutulur.



Bu barədə AZƏRTAC-a Ağdam Dövlət Aqrar İnkişaf Mərkəzinin Heyvandarlıq sektorunun müdiri Şahlar Orucov məlumat verib.

Qurum rəsmisi bildirib ki, arıçılıq təsərrüfatlarında olan arı ailələri Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyata alınaraq təsdiq edilib. Yaxın vaxtlarda arıçılara subsidiyanın ödənilməsinə başlanılacaq.

Qeyd edək ki, ötən il Ağdam rayonunda arıçılıqla məşğul olan 284 arıçıya saxladıqları 4834 arı ailəsinə görə dövlət büdcəsinin vəsaiti hesabına hər arı ailəsinə 10 manat hesabı ilə 48 min 340 manat subsidiya ödənilib.

## Payızlıq səpin üçün indiyədək 3750 hektar sahə şumlanıb

Taxıl zəmilərindən bol məhsul götürən Beyləqan fermerləri payızlıq əkinlər üçün mühüm aqrotexniki tədbir olan yay şumunun aparılmasını davam etdirirlər.



Beyləqan Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, yüksək məhsuldarlıqda yay şumunun əhəmiyyətini xüsusi qiymətləndirən fermerlər və torpaq mülkiyyətçiləri bu işin vaxtında və keyfiyyətlə başa çatdırılması üçün ciddi səy göstərirlər. Bu günədək rayonun təsərrüfatlarında 3750 hektar sahə şumlanıb.

Qeyd edək ki, Beyləqan taxılçıları bu il 12 min 989 hektar taxıl sahəsindən 46 min 112,7 ton məhsul əldə ediblər. Məhsulun 40 min 521 tonu buğda, 5591,7 tonu arpadır. Hər hektarın məhsuldarlığı orta hesabla 35,5 sentner, o cümlədən buğda sahələrində 36,5 sentner, arpa sahələrində isə 30,7 sentnerdir.

# Kənd yollarında asfatlanma işləri aparılır





**Lənkəran rayonunun 16 kəndində eyni vaxtda yolların asfaltlanmasına başlanılıb. Artıq rayonun Sutəmurdov, Velədi, Bala Şürük kəndlərində və Gərmətük qəsəbəsində yollar əsaslı təmir olunaraq başdan-başa asfaltlanıb.**





Yollar ağır texnika vasitəsilə hamarlanaraq genişləndirilir, suötürücü arxlar təmizlənir, elektrik, rabitə xətləri qaydaya salınır, səliqə-sahman işləri görülür. Həyata keçirilən tədbirlər yerli əhali tərəfindən böyük razılıq hissi ilə qarşılanır. Asfaltlanma işi sürətlə davam etdirilir. Lənkəran ŞİH başçısı Taleh Qaraşov asfatlanma işləri ilə tanış olmaq üçün Gərmətük qəsəbəsində və Bala Şürük kəndində olub yol inşaatçıları və yerli sakinlərlə görüşüb. Söhbət zamanı sakinlər onlar üçün yaradılan şəraitdən razılıqlarını bildiriblər və görülən işlərə görə ölkə Prezidentinin ünvanına minnətdarlıq ifadə ediblər. Sakinlərin yaşam şəraiti ilə maraqlanan icra başçısı ölkə Prezidentinin diqqət və qayğısı ilə rayonda uğurla icra olunan iri investisiya tutumlu layihələrin yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafını sürətləndirməklə yanaşı, vətəndaşların maddi-məişət şəraitini yaxşılaşdırdığını vurğulamışdır. O, belə layihələrin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb. Eyni zamanda icra başçısı koronavirus pandemiyası ilə bağlı rayonda həyata keçirilən tədbirlərdən danışaraq vətəndaşları sayıqlığı itirməməyə, arxayınlaşmamağa, tətbiqi zəruri olan qaydalara əməl etməyə, lazımi məqamlarda tibbi maskalardan, qoruyucu vasitələrdən istifadə etməyə, təmas zamanı sosial məsafəni gözləməyə dəvət edib.

***"Azərbaycan"***

## 37 min tondan çox taxıl tədarük olunub

Bu ilin məhsulu üçün muxtar respublikanın Babək rayonunda 16 min 172 hektar sahədə əkin aparılıb. Əkin sahələrinin 11 min 767 hektarını taxıl təşkil edib. 11 min 540 hektarda payızlıq, 227 hektarda isə yazlıq taxıl əkilib. İyun ayından başlayan biçin kampaniyası artıq yekunlaşıb və rayon üzrə 37 min 702 ton məhsul toplanılıb.

AZƏRTAC xəbər verir ki, Babək rayonunda 2019-cu ilin payızlıq əkini üçün 2061 taxıl istehsalçısına 649 min 128 manat məbləğində pul vəsaiti ayrılıb. Yeni dövlət kəndlinin taxılı yetişdirmək üçün çəkdiyi xərcin mühüm bir hissəsini öz üzərinə götürüb. Bundan başqa, məhsuldarlığı artırmaq üçün taxılçılara dövlət tərəfindən 2 min 900 tona yaxın azot, 40 tondan artıq fosfor gübrəsi verilib.

Bu ilin birinci yarısında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə dövlət tərəfindən babəkli sahibkarlara 44 texnika və texnoloji avadanlıq lizinq yolu ilə satılıb.

## Yanğından zərər çəkən iki ailə üçün yeni ev tikilir

Quba rayonunun Qarxun kəndində bu ilin fevral ayında baş verən yanğın zamanı evləri tamamilə yanan iki ailə üçün yeni mənzillərin tikintisinə başlanılıb.



AZƏRTAC xəbər verir ki, Qarxun kəndində yanan evlərdən biri şəhid atası 75 yaşlı Rafiq Bayramova məxsusdur. Onun oğlu Famil Bayramov 1994-cü ildə Tərtər uğrunda gedən döyüşlərdə şəhid olub.

Rafiq Bayramov qeyd edib ki, yanğın nəticəsində evləri əşyaları ilə birlikdə tamamilə yandığından yaşamaq üçün yerləri olmayıb. Ailə müvafiq dövlət qurumları tərəfindən müvəqqəti sığınacaqla təmin olunub. Hazırda isə zərərçəkmiş üçün öz istəyi nəzərə alınmaqla rayonun İqrik kəndində 3 otaqlı yeni ev tikilir.

Yanğından zərər çəkən Rəhimovlar ailəsi aztəminatlıdır. Pakizə Rəhimovanın həyat yoldaşı avtomobil qəzasında dünyasını dəyişdikdən sonra himayəsində 3 övladı qalıb. Rəhimovlar ailəsi üçün yeni ev Qubanın Zərdabi qəsəbəsində inşa olunur.

Rük inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Fazil İskəndərov bildirib ki, sahəsi 110 kvadratmetr olan birmərtəbəli evlərin inşası bu ilin sonuna kimi başa çatdırılacaq.

## Biz birlikdə güclüyük!

# Pandemiya tələblərinə əməl etsək, karantin rejiminə lüzum qalmaz





*Əvvəli 1-ci səh.*

### İnfeksiya üzərində üstünlük hər ötən gün daha da möhkəmlənir

Xəstələnənlərin sayına, digər ölkələrin və Ümumdünya Səhiyyə Təşkilatının statistikalarına əsasən, demək olar ki, ölkəmiz virusla mübarizədə irəlidədir. İnfeksiya üzərində bu üstünlük hər ötən gün daha da möhkəmlənərək Azərbaycanda normal həyata dönüşə təkan verir.

Dünya təcrübəsindən də məlumdur ki, yoluxma sürəti yüksək olan bu virusla mübarizənin effektiv nəticəsi məhz qabaqlayıcı, profilaktik tədbirlərin vaxtında və geniş həcmdə aparılmasından asılıdır. Bu baxımdan virusa yoluxmuş şəxslərin düzgün müayinə edilib zamanında aşkarlanması mühüm əhəmiyyət kəsb edir. Ona görə də testlərin keçirilməsinə xüsusi diqqət yetirilir. Yalnız bundan sonra yoluxan insanları təcrid etmək, ünsiyyətdə olduqları şəxsləri müəyyənləşdirmək və nəticədə yeni yoluxmaların qarşısını almaq mümkündür.

### Seroloji testlərin keçirilməsi üçün ilk mərhələyə start verilib

Azərbaycanda bu istiqamətdə aparılan işlər mühüm qabaqlayıcı və operativ tədbirlər sırasında ilk sırada durur. Laboratoriyaların sayı pandemiya başlayandan qısa müddət ərzində 5 dəfə artırılaraq 6-dan 31-ə çatdırılıb. Yaxın zamanlarda isə bu laboratoriyaların sayının 45-ə çatdırılması nəzərdə tutulur.

Hazırda ölkəmizdə koronavirusa yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar aparılan testlərin ümumi sayı səkkiz yüz qırx mini ötüb.

Bu həftədən ölkəmizdə COVID-19 pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində əhali qrupları arasında seroloji testlərin keçirilməsinə başlanılacaq. Artıq seroloji testlərin keçirilməsi üçün ilk mərhələyə start verilib. Belə ki, çağrı mərkəzindən təsadüfi seçilən şəxslərə zənglər olunur. TƏBİB-in Mikrobiologiya İşçi Qrupunun rəhbəri Qumral Ələkbərova məlumat verib ki, vətəndaş razı olduğu halda könüllülük prinsipi əsas götürülərək qeydiyyata alınır.

Vətəndaşın razılığı olduğu halda onun evinə tibbi briqada göndərilir. Testdən keçməyə razılıq verən şəxs istədiyi təqdirdə əlavə olaraq ondan qanın ümumi analizi də götürülə bilər.

### Bu yolla infeksiyanı nəzarətolunan və təhlükəsiz həddə çatdırmaq mümkündür

Sadalanan effektiv tədbirlər və epidemioloji vəziyyətə uyğun atılan addımlar sayəsində vətənimizdə sərt karantin rejimindən mərhələli şəkildə yumşaldılmalara keçidə də start verilib. Vətəndaşların qoyulan qaydalara ciddi əməl etməsi isə yoluxma sayının kəskin azalmasında birbaşa rol oynayır.

Avqustun 5-dən SMS icazə sistemi ləğv edilib, çimərliklər açılıb. Ayın 10-dan iqtisadi aktivliyin gücləndirilməsi zərurəti nəzərə alınaraq sərt karantin rejiminin yumşaldılması istiqamətində növbəti tədbirlər paketi qüvvəyə minib. Müvafiq qərara əsasən, sərtləşdirilmiş karantin rejiminin tətbiq olunduğu Bakı, Sumqayıt, Gəncə, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir şəhərlərinin və Abşeron, Bərdə, Salyan, Xaçmaz, Goranboy, Göygöl rayonlarının ərazisində qeyd olunan tarixdən etibarən bir sıra istehsal, ticarət və xidmət sahələrinin fəaliyyətinə icazə verilib. İri ticarət mərkəzləri və "Mall"lardan başqa, qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazalar açılıb, bəzi sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilən məhdudiyyətlər aradan götürülüb. Ötən çərşənbə axşamından isə ictimai iaşə obyektlərində müştərilərə açıq hava şəraitində xidmət göstərilməsinə icazə verilib.

Aidiyyəti qurumlar tərəfindən həmin müəssisələrdə qoyulan tələblərə əməl edilməsinə ciddi nəzarət həyata keçirilir.

### Rayonlara gediş-gəliş, iri ticarət mərkəzləri və pandemiyaya görə bağlanan digər müəssisələr də açıla bilər

Mütəxəssislər bildirirlər ki, pandemiyanın tələbləri - sosial məsafə, maska taxmaq və gigiyena şərtlərinə əməl etməklə infeksiyanı nəzarətolunan və təhlükəsiz həddə çatdırmaq mümkündür. Hətta belə olarsa, karantin rejiminin tətbiqinə də zərurət yaranmaz.

Ümumdünya Səhiyyə Təşkilatı bir neçə gün əvvəl dünya ölkələrinə müraciət edərək, yeni koronavirus infeksiyasına görə daha karantin tətbiq etməməyə çağırıb, ikinci və sonrakı COVID-19 dalğalarında karantinin yolverilməz olduğunu bəyan edib.

Azərbaycanın baş infeksionisti Cəlal İsayev bu məsələ ilə bağlı bildirib ki, istər sərt karantin rejimi olsun, istərsə də yumşalmalar, insanlar Operativ Qərargah tərəfindən verilən tövsiyələrə əməl etsələr, yoluxmaların sayı o qədər də yüksək olmaz: "Düzdür, qaydalara əməl etməyənlərə görə yoluxmalar artsa da, bu o qədər də yüksək olmayacaq. Sevindirici haldır ki, insanlar maskadan istifadə edir, sosial məsafəni qoruyur, sanitar-gigiyenik qaydalara əməl edirlər. Təəssüf ki, qaydalara əməl etməyənlər də var və onların hesabına yoluxanlar olur. Bu nöqteyi-nəzərdən düzgün fikirdir ki, karantin rejimi olsa da, olmasa da xəstələnmə halları baş verəcək. Amma tövsiyələrə əməl olunarsa, yoluxma sayı xeyli aşağı düşər. Bu halda normal həyatımıza da tez qayıda bilərik. Rahat şəkildə rayonlara gediş-gəliş, iri ticarət mərkəzləri və pandemiyaya görə bağlanılan digər müəssisələr də açıla bilər".

Baş infeksionist qeyd edib ki, hazırda COVID-19-a yoluxanların sayı aşağı düşüb, amma qaydalara əməl etməsək, bu say yenidən qalxacaq. Çünki hələ epidemiya sönməyib: "Avropa dövlətlərində, eləcə də qardaş Türkiyədə yoluxanların sayı çoxalır. Amma bizdə yoluxanların sayı müsbət dinamikadadır. Yoluxmanın azalmasını və sabit saxlanılmasını istəyiriksə, qaydalara əməl etməliyik".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***






# Mədəniyyət Nazirliyi ilə ABŞ-ın ölkəmizdəki səfirliyi arasında anlaşma memorandumu imzalanıb

Avqustun 19-da Mədəniyyət nazirinin birinci müavini, Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov və Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Örl Litzenberqer arasında görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, görüş zamanı "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə ABŞ-ın Azərbaycandakı Səfirliyi arasında "Amerika guşələri" proqramı çərçivəsində əməkdaşlıq haqqında" anlaşma memorandumu imzalanıb.

Anar Kərimov Azərbaycanla ABŞ arasında humanitar sahədə əməkdaşlıqdan məmnunluğunu ifadə edərək bu sahədə geniş imkanların olduğunu bildirib.

Xatırladaq ki, nazirliklə səfirlik arasında 2017-ci ildə imzalanan anlaşma memorandumuna əsasən, Gəncə şəhəri, Salyan, Xaçmaz və Kürdəmir rayon mərkəzi kitabxanalarında "Amerika guşələri" yaradılıb. Qarşılıqlı razılıq əsasında növbəti üç il müddətinə yeni sənəd imzalanıb. Anlaşma Memorandumu Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və ABŞ-ın Azərbaycan Respublikasında Səfirliyi 2020-2023-cü illərdə Gəncə şəhəri, Salyan, Xaçmaz və Kürdəmir rayon mərkəzi kitabxanalarında "Amerika guşələri" kimi tanınan ictimai informasiya və fəaliyyət mərkəzlərini dəstəkləməkdə birgə əməkdaşlığının davam etdirilməsini nəzərdə tutur.

Sənədə əsasən, Mədəniyyət Nazirliyi guşələrin fəaliyyət göstərməsinə dəstəyi təmin edəcək. Öz növbəsində, səfirlik guşələri Birləşmiş Ştatlar haqqında, habelə ikitərəfli maraqlara uyğun mövzularda çap edilmiş ədəbiyyat və internet əsaslı elektron resurslarla, ABŞ-ın dövri mətbuatına abunə və Amerika filmlərinin nümayişinə icazəni nəzərdə tutan lisenziya ilə təmin etməyi üzərinə götürür. Hər bir guşənin veb-saytının fəaliyyəti və mütəmadi qaydada yenilənməsi də səfirlik tərəfindən həyata keçiriləcək. Eyni zamanda nazirlik və səfirliyin birgə əməkdaşlığı ilə guşələrin işçiləri üçün treninq və məşvərətlər təşkil ediləcək.

Səfir Örl Litzenberqer layihənin regionlarda yaşayan azərbaycanlı gənclərin ingilis dilini inkişaf etdirməsi, Amerika mədəniyyəti və cəmiyyəti haqqında məlumat alması üçün mükəmməl bir vasitə olduğunu qeyd edib. Səfir anlaşma memorandumunun yenidən imzalanmasının əhəmiyyətini bildirib.

Ölkəmizin mədəniyyət və tarixi abidələrinin bərpasına səfirliyin ənənəvi dəstəyinin davam etdirilməsi və mədəniyyət sahəsində menecerlərin yetişdirilməsi üçün birgə treninq layihələrinin həyata keçirilməsi, mədəniyyət sahəsində rəqəmsallaşmanın inkişafı ilə bağlı əməkdaşlığın gücləndirilməsi, yaradıcı sənayelərin inkişafı üçün təcrübə mübadiləsinin aparılması ilə bağlı mövcud əməkdaşlığın daha da genişləndirilməsi məsələləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan incəsənət xadimlərinin ABŞ-da keçirilən konsertlərdə iştirak etdiyi, eyni zamanda ABŞ sənətçilərinin Bakıda keçirilən caz festivallarında çıxış etdiyi diqqətə çatdırılıb.

# Tankçılarımız "Tank biatlonu" müsabiqəsinə hazırlıqlarını davam etdirirlər





"Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində keçiriləcək "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız birinci divizionun ilk yarışına hazırlıqlarını davam etdirirlər. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tank heyətləri və texniki dəstək qrupu tərəfindən yarışda istifadə olunacaq döyüş maşınlarına baxış keçirilib. Heyətlərimiz döyüş maşınlarını yoxladıqdan sonra tankın ştat silahlarından yoxlama atışlarını da icra ediblər.



# Azərbaycanda COVID-19-dan daha 162 nəfər sağalıb, 146 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 162 nəfər sağalıb, 146 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 34 min 620 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 32 min 363 nəfər müalicə olunaraq sağalıb, 510 nəfər vəfat edib. Aktiv xəstə sayı 1747 nəfərdir. Ötən müddət ərzində 849 min 628 test aparılıb. Dünənki test sayı isə 6359-dur.

# "Azercell" mobil tətbiqləri artıq "Kabinetim"də

## İndi mobil operatorun rəqəmsal xidmətlərinə qoşulmaq daha da rahat oldu

**Müasir telekom bazarında unikal olan "Azercell"in "Kabinetim" mobil tətbiqi abunəçilərin rahatlığı üçün daha geniş imkanlar yaradır. İndi artıq bu tətbiqin istifadəçiləri vahid mənbə olaraq "Kabinetim" vasitəsilə "Azercell" tətbiqlərinə abunəlik əldə edəcək, cari statusu asanlıqla izləyib idarə edə biləcəklər.**




Belə ki, "Kabinetim" tətbiqinin son yenilənmiş versiyasında iVi Mobil Cinema və BluTV tətbiqlərinə anında qoşulma imkanı yaradılıb. Bunun üçün sadəcə "Tətbiqlər" bölməsinə daxil olub, abunə olmaq istədiyin tətbiqi seçmək lazımdır. Xatırladaq ki, iVi tətbiqi minlərlə film və serialı eyni anda 5 cihazdan izləməyə imkan verir. BluTV-yə abunəlik isə eksklüziv olaraq türk film və seriallarını maneəsiz izləmək imkanı yaradır.

Azərbaycan, rus və ingilis dillərini dəstəkləyən "Kabinetim" tətbiqi abunəçilərə nömrəyə tam nəzarət etmək, balansı artırmaq, tarif və internet paketlərini sifariş edib dəyişdirmək, bir çox xidmətləri aktiv və deaktiv etmək imkanı verir. "Kabinetim" çərçivəsində onlayn çat vasitəsilə müştəri xidmətlərinə birbaşa müraciət etmək mümkündür. Nömrə ilə bağlı əksər əməliyyatların şəxsən abunəçi tərəfindən yerinə yetirilməsi vaxta qənaət etməklə yanaşı, abunəçinin işini asanlaşdırır, onun nömrənin vəziyyəti haqqında daim məlumatlı olmasını təmin edir. Həm iOS, həm də Android əməliyyat sistemlərində çalışan çoxfunksional "Kabinetim" tətbiqini App Store, PlayStore və ya Huawei AppGallery-dən ödənişsiz olaraq yükləmək mümkündür.

Gələcəkdə Kabinetim" üzərindən digər tətbiqlər - xarici idilər öyrənmək üçün Busuu, Bookmate online kitabxanasına, 200-dən çox kanala abunəlik verən NNTV, 40 milyona yaxın mahnı bazası olan Zvuk və digər tətbiqlərə qoşulmaq imkanı yaradılacaq.


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankında Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi və Ani Ödənişlər Sisteminin arxitekturasında istifadə olunan Oracle VBİS lisenziyalarının dəstəklənməsi xidmətinin satın alınması ilə bağlı "Azərbaycan" qəzetinin 07 iyun 2020-ci il tarixli nömrəsində dərc edilmiş və elektron satınalmaları proseduru çərçivəsində keçirilmiş açıq tender üzrə Tender komissiyasının 10 avqust 2020-ci il tarixli qərarına əsasən, "GT SOLYUŞNZ" MMC tenderin qalibi müəyyən edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***





# Mədəniyyət





● Klassik poeziya ustadı

**1835-ci il iyulun 9-da Şamaxı şəhərinin Qalabazar məhəlləsində, ruhani ailəsində dünyaya gəlib. Ona babası Əzimin adını veriblər. Şamaxının nüfuzlu şəxslərindən olan atası Seyid Məhəmməd Seyid Əzim kiçik ikən vəfat edib. O, anasının ümidinə qalıb. Sonra Dağıstanın Yaqsay kəndində yaşayan ana babası Molla Hüseyn qızını və nəvəsini yanına aparıb. Molla Hüseynin oğlu yox idi. O, bu qabiliyyətli, gözüaçıq, zirək uşağa doğma oğlu kimi baxıb.**



sidə, mədhiyyə, minacat, rübai, qitə, müxəmməs, müsəddəs, müstəzad, tərcibənd və tərkibənd, həcv, təmsil, mənzum hekayə və başqa formalarda əsərlər yazıb.

Tədqiqatçıları yazırlar ki, şairin bədii irsi Azərbaycan və farsca iki külliyyatdan ibarətdir. Füzuli ədəbi məktəbinin qüdrətli davamçısı olan Seyid Əzimin lirikasında başlıca yeri məhəbbət mövzulu qəzəllər tutur. Maraqlı nəsr əsərlərinin də müəllifi olan Seyid Əzim Şirvaninin hekayələrinin əksəriyyəti kiçik həcmlidir. Ədib yüzdən artıq mənzum hekayəsində xalq nağıllarından, Molla Nəsrəddin lətifələrindən istifadə edib. O, həm də təmsil ustasıdır. Satirik şeirləri, mənzum hekayələri

Əksər tədqiqatçıların qeyd etdiyi kimi, şair ateist olmayıb, dini inkar etməyib, yalançı dindarların uydurduğu, əslində, islama zidd ayin və mərasimləri pisləsə də, tənqidi birbaşa dinin özünə yönəltməyib. Sovet dövrü tədqiqatçıları onun dünyagörüşündəki bu cəhəti məhdud, zəif, ziddiyyətli xüsusiyyət kimi dəyərləndiriblər.

Yalançı dindarların cahilliyini, savadsızlığını əsərlərində satira atəşinə tutub. Şair yazıb:

*Hər vilayətdə var beş-on kəsəbə,*
*Əlli min seyyidü, axund, tələbə,*
*Əlli dərviş, əlli mərsiyəxan,*
*Hamının sözləri tamam yalan.*
*Hamının fikri xəlqi soymaqdır,*
*Quru yerdə bu xəlqi qoymaqdır.*

Riyakar ruhanilər və din xadimləri onu nüfuzdan salmağa çalışıblar. Təhdidlərdən, məhrumiyyətlərdən çəkinməyən şair ömrünün faciəli sonluğunadək məqsədindən dönməyib.

# Aləmdə səsi olan şair...

## Ruhani təhsilli müəllim

Seyid Əzim Dağıstanda on ildən artıq yaşayıb. Ərəb və fars dillərini, həm də bir neçə Dağıstan ləhcəsini Yaqsay kəndində ruhanilik edən babasından öyrənib.

1853-cü ildə on səkkiz yaşlı Seyid Əzim anası Gülsüm xanımla Şamaxıya dönüb. Elə həmin il Şamaxı mədrəsəsinə gedib.

XIX əsrin ortalarında Azərbaycanın əksər yerləri kimi, Şamaxıda da Şərqin dini mərkəzlərində ruhani təhsili almaq ənənəsi davam edirdi. Atasının və babasının yolu ilə getmək, ruhani olmaq həvəsi iyirmi bir yaşlı Seyid Əzimi 1856-cı ildə İraqa - Nəcəf və Bağdada aparıb. İraqda oxuyarkən dünyəvi elmlərə də böyük maraq göstərib. Bir neçə il sonra Suriyanın Şam şəhərinə gedib. Orada təhsilini başa vurub, axund adı qazanıb. Vətəninə qayıdıb. Bir müddət sonra Seyid Əzim ziyarətə yollanıb. Bu dəfə Məkkə və Mədinədən keçərək Misirə, Qahirə şəhərinə gedib.

Ali ruhani təhsili alsa da, Seyid Əzim Şamaxıda müəllimliklə məşğul olub. Həmin dövrdə Şuşa, Nuxa, Bakı, Gəncə, Naxçıvan, Şamaxı şəhərlərində yeni tipli məktəblər açılırdı. Seyid Əzim də 1869-cu ildə Şamaxıda "Məclis" adlı məktəb təşkil edir. Burada köhnə mollaxanalardan fərqli olaraq şagirdlərə dini elmlərlə yanaşı, ana dili və fars dilini tədris edib, tarix, coğrafiya, hesab və başqa fənlərdən ibtidai məlumat verib. Mirzə Ələkbər Sabir, Sultan Məcid Qənizadə və başqaları onun məktəbində dərs alıblar.

Bu məktəb barədə dəqiq məlumatı 1889-cu ildə Potidə Minqrel şəhər məktəbinin müəllimi A.Zaxarov verib. O, məqaləsində Seyid Əzimin 18 il idarə etdiyi məktəbində 33 nəfər şagirdin oxuduğunu yazıb. Bildirib ki, bunlardan 12 nəfəri həftədə 15 qəpik, 9 nəfəri 20 qəpik və 12 nəfəri isə 25 qəpik tədris haqqı verir ki, cəmi 6 manat 60 qəpik edir. Seyid Əzim bir neçə il bu cür dərs dedikdən sonra tərcümə etdiyi əsərləri və öz şeirlərini toplayıb "Məcmueyi-asari-Hacı Seyid Əzim Şirvani" adlı bir dərs kitabı tərtib etmişdir. Seyid Əzim həmin dərsliyi əlyazması şəklində o zamanlar Qori seminariyasının tatar şöbəsinin müdiri Aleksandr Osipoviç Çernyayevski göndərib. Çernyayevski də həmin kitabdan bir neçə hekayə alıb, tərtib etdiyi "Vətən dili" dərsliyində çap etdirib.

Ədəbiyyata və elmə maraq göstərən, hələ Bağdadda ikən Şərq ədəbiyyatına yaxşı bələd olan Seyid Əzim qırx yaşında rus dilini öyrənməyə başlayıb. Bu dil vasitəsilə Qərb mədəniyyəti ilə tanış olmağa çalışıb. O zaman Azərbaycanda həm Şərq, həm də Qərb poeziyasının tərcüməsində gerilik vardı. Dünya mədəniyyəti barədə uşaqları məlumatlandırmaq üçün Şirvani özü tərcümələr edib. Seyid Əzim şagirdlərinə Azərbaycanın, Şərqin və Qərbin dünyaşöhrətli şairlərini, onların əsərlərini tanıdıb. İ.A.Krılovun "Şir və siçan" təmsilini "Ayı və siçan" adı ilə ilk dəfə o tərcümə edib.

*Qaz utandı o göldə durnadən,*
*Vaqif ol, ey oğul, bu mənadən*
*Yəni bir elmə daim ol talib.*
*Kişi bir sənəti bilər xalis,*
*Çoxuna meyl edən qalar naqis.*

O, 1877-ci ildə Şamaxı şəhər məktəbinə Azərbaycan dili və şəriət müəllimi təyin edilib. Şagirdlərə müasir ruhlu əsərlər oxudan Seyid Əzim çar hakim dairələrinin nəzərində şübhəli şəxs hesab edilib. Hökumət nümayəndələri ilə ruhanilər əlbir olaraq 1879-cu ildə onun müəllimlikdən kənarlaşdırılmasına nail olublar. Seyid Əzim Tiflisə gedərək Qafqaz maarif idarəsi rəisinə işdən haqsız çıxarıldığını sübut edib. Özünün və bəzi maarifpərvərlərin səyləri Seyid Əzimin müəllimliyə qayıtması ilə nəticələnib. O, ömrünün sonunadək bu peşədə çalışıb.

Seyid Əzim Şamaxıda "Beytüssəfa" ədəbi birliyini yaradıb. Əqidə və amal dostları olan Şamaxının qabaqcıl ziyalıları ilə birgə bu birlikdə ədəbiyyatdan, dindən, tarixdən, təbiət elmlərindən söhbət açıb.

## Şairə qarşı düşmənçilik...

Bədii yaradıcılığa təxminən 1850-ci illərdə başlayıb. Qəzəl, qəkimi təmsillərində də tərbiyəvi-əxlaqi fikirlər irəli sürüb. Mərdlik, dostluq, dürüstlük, əməksevərlik, insanlarla xoş münasibət öyüdlərinin əsas məzmununu təşkil edir. Şair gənclərə elm, sənət öyrənməyi, tənbəl olmamağı, pis əməllərin arxasınca getməməyi nəsihət edib. Ata, müəllim qayğıkeşliyi, narahatlığı ilə uşaqları zərərli vərdişlərdən uzaq durmağa, vətənə, xalqa sədaqətlə xidmət etməyə səsləyib.

Maarifçi və tənqidi-satirik şeirləri ilə mövhumatı, nadanlığı kəskin tənqid edən Seyid Əzimə düşmən münasibət bəsləyənlərin sayı gündən-günə artıb. Yazılanlara görə, onun haqqında elə dedi-qodular gəzirdi ki, danışmağa adamlar ürək etmirmişlər.

Satirik şeirləri "Əkinçi" qəzetində işıq üzü görməyə başladıqdan sonra Seyid Əzimə qarşı düşmənçilik münasibəti daha da kəskinləşib. Bu mətbu orqanın səhifələrində şairin ondan çox şeiri işıq üzü görüb. O, Həsən bəy Zərdabinin xeyirxah təşəbbüsünü, maarifpərvərliyini alqışlayıb. Şair müasirlərini bu qəzeti oxumağa, ona kömək etməyə çağırıb:

*Bəs "Əkinçi" cəlalımızdır bizim,*
*Nasehi xoşməqalımızdır bizim.*
*Səy edək, ey guruhi-niksifat,*
*Etməsin ta bizim "Əkinçi" vəfat.*

Realist şeir yaradıcılığına keçməsində "Əkinçi" qəzetinin mühüm rolu olub. "Yerdəkilərin göyə şikayət etmələri", "Dəli şeytan", "Məkri-zənan", "Bəlx qazisi və xarrat", "Müctəhidin təhsildən qayıtması", "Müəllim haqqında tədbir", "Elmsiz alim", "Alim oğul ilə avam ata", "Qafqaz müsəlmanlarına xitab" və başqa satiraları Seyid Əzim Şirvanini dövrünün böyük realist şairi kimi tanıdıb.

Seyid Əzim haqsızlığı ifşa edib, xalqı maarifə, mədəniyyətə çağırıb. Rüşvətxor çar məmurları, zalım mülkədarlar, ikiüzlü mollalar onun tənqid hədəfində idi. Şair "Şirvan bəyləri haqqında" adlı əsərində yazıb:

*Nə pristav, nə köməkçi, nə kvartal, nə kazak,*
*Hamısı qurd kimi soymaqlığa xalqı ki, qoçaq...*

## Əsərləri dövlət varidatı elan edilən müəllif

Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri olan böyük satirik şair, maarifçi Seyid Əzim Şirvani 1888-ci ilin 20 mayında, əlli üç yaşında Şamaxıda vəfat edib. Onun qəfil ölümü ilə bağlı müxtəlif iddialar var. Onlardan biri şairin suiqəsd nəticəsində dünyasını dəyişməsidir. Şairin məscid qapısında yaradılan süni basabasda öldüyü bildirilib. Seyid Əzimin möhvumatçı insanlar tərəfindən qətlə yetirilməsi də söylənilən iddialar arasında yer alıb. Tədqiqatçılar birinci ehtimalın daha çox yayıldığını yazıblar.

Seyid Əzimin məktəb şagirdləri üçün hazırladığı, əlyazma şəklində materiallarını vəfatında sonra oğlu Mir Cəfər nizama salaraq 1895-ci ildə Təbrizdə daş basması ilə kitab nəşr etdirib. Həmin kitabdan mollaxanalarda, məhəllə məktəblərində bir müddət dərslik kimi istifadə olunub.

Şirvanidən sonra bir çox satirik şairlər meydana çıxıb. XIX əsrin sonlarında satira ədəbiyyatda ən dəbdə olan istiqamətə çevrilib.

Dövründə yaradıcılığı qiymətləndirilməyən, həyatı əzab-əziyyətlə keçən, ancaq məhrumiyyətlərə baxmayaraq bütün varlığı ilə doğma xalqına xidmət edən Seyid Əzim Şirvani hikmətli, nəsihətamiz əsərləri ilə özünə əbədi abidə ucaldığına inanaraq yazıb:

*Mövti-cismani ilə sanma mənim ölməyimi,*
*Seyyida, ölmərəm, aləmdə səsim var mənim.*

Zaman onun haqlı olduğunu təsdiq etdi. Seyid Əzimin əsərləri bu gün də aktuallığını itirmir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə Seyid Əzim Şirvani Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

● Ə.Haqverdiyev -150

# O, "Leyli və Məcnun" operasının ilk tamaşasına dirijorluq etmişdir

**Üzeyir bəy Hacıbəyli 1897-1898-ci illərdə Şuşada Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə "Məcnun Leylinin məzarı üstündə" adlı səhnəcik tamaşaya qoymuşdur. Bu səhnəcikdə baş rolu Cabbar Qaryağdıoğlu ifa etmişdir.**



XX əsrin əvvəllərindən Bakıda yaşayan Əbdürrəhim bəy Haqverdiyev burada ədəbi yaradıcılıqla yanaşı, rejissorluqla da məşğul olmuşdur. 1908-ci ildə "Leyli və Məcnun" operasının ilk tamaşasına dirijorluq etmişdir.

## "Molla Nəsrəddin"in ən fəal yazarı

**Dövrün əksər ziyalılarını öz ətrafında birləşdirən "Molla Nəsrəddin"in yazarlarından biri də Əbdürrəhim bəy Haqverdiyev olmuşdur. Mollanəsrəddinçi mühərrirlərin çoxundan fərqli olaraq, Ə.Haqverdiyev jurnalda çap olunanda artıq tanınmış yazıçı-dramaturq idi.**

"Molla Nəsrəddin" jurnalı isə ədibin daxilində gizlənmiş, yatıb qalan yeni cəhətini, onun kəskin gülüş qabiliyyətini, satirik-yumoristik istedadını üzə çıxardı.

Onun "Ceyranəli", "Xortdan", "Həkimi-nuniseqir", "Lağlağı", "Mozalan", "Süpürgəsaqqal" və s. imzalarla "Molla Nəsrəddin" jurnalında bir sıra hekayələri, felyetonları dərc edilmişdir.

Ədib 1907-ci ilin yanvar ayından başlayaraq burada Azərbaycan nəsrinin klassik nümunələrindən olan "Cəhənnəm məktubları"nı çap etdirmişdir. "Molla Nəsrəddin" jurnalında çap olunan "Cəhənnəm məktubları" (1907), "Bomba" (1908), "Mozalan bəyin səyahətnaməsi" (1908) və "Marallarım" adı altında gedən hekayələrdə ədib dövrün bir sıra mühüm məsələlərinin bədii həllini vermişdir.

## Ədib Azərbaycan tarixinin mühüm bir dövrünü əsərlərində əks etdirmişdir

**Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Haqverdiyev dövlət teatrlarına müfəttiş təyin olunmuşdur. Azərbaycan milli teatrının yaranmasının 50 illiyi münasibətilə keçirilən yubileyə başçılıq etmişdir.**

Ədib dünya klassiklərindən Şekspirin "Hamlet", Şillerin "Qaçaqlar", Volterin "Soltan Osman", Zolyanın "Qazmaçılar", Andersenin "Bülbül","Şahın təzə libası", Lanskoyun "Qəzəvat", Çirikovun "Yəhudilər", Korolenkonun "Qoca zəng çalan" əsərlərini də tərcümə etmişdir.

Rusiya Elmlər Akademiyasının nəzdində olan ölkəşünaslıq bürosunun beşinci elmi sessiyasında yekdilliklə akademiyanın ölkəşünaslıq bürosuna müxbir üzv seçilmişdir (1924).

Şərq fakültəsinin katibi (1922-1925), Azərbaycan Yazıçılar İttifaqının məsul katibi (1931-1932) olmuşdur. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin fəxri fərmanına layiq görülmüşdür (1933). Onun əsərləri SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

Ə.Haqverdiyevin ədəbi-nəzəri görüşləri onun yaradıcılığında əsas mövqedə dayanır. Onun ədəbi yaradıcılığının inkişaf yolu xalq həyatı ilə, cəmiyyətin keçdiyi ziddiyyətli yollarla bağlı olmuşdur. Yazıçının Azərbaycan teatrı, tarixi dram, xalq tamaşaları, M.F.Axundov, M.Ə.Sabir, "Molla Nəsrəddin", Azərbaycan dili, milli şeir, realist ədəbiyyatımızın bəzi məsələləri haqqındakı elmi-nəzəri məqalələri, publisistikası bu gün də öz əhəmiyyətini itirməmişdir.

● Zəngin təbiətimiz

# Azərbaycan çayları

**Azərbaycan ərazisində irili-xırdalı 8550-dən artıq axar sudan ibarət çay sistemi vardır ki, onların bütövlükdə ümumi uzunluğu 33665 km təşkil edir. Bütün bu çayların su toplayıcı sahəsi 85600 km$^2$ qəbul edilir. Çayların 7550-sinin uzunluğu 5 km-dən az olan çaylardır. Qalan 800 çaydan yalnız 65-nin uzunluğu 50 km-ə qədər, 735-nin uzunluğu isə 6 km ilə 50 km arasında dəyişir.**



Azərbaycan ərazisindən axan ən iri çaylar Kür və Arazdır. Tədqiqatçılar çayları bir-birindən fərqləndirən iki böyük qrupa bölürlər: dağ və düzənlik çayları.

Dağ çayları öz mənbəyini dəniz səviyyəsindən 2000-3500 m hündürlükdə olan dağlardan götürür, öz axarlarında çay pillələri və şəlalələr əmələ gətirir, dərin dərələrlə axır və düzənliklərə çıxdıqda güclü yarğanlar əmələ gətirərək çoxlu qollara ayrılırlar. Onlardan bəziləri tez-tez öz axarlarını dəyişir, digərləri isə yerin altı ilə sızaraq itir, yaxud kiçik bataqlıqlar əmələ gətirirlər.

Düzənlik çayları isə başlıca olaraq maili düzənliklərdə, geniş Kür-Araz ovalıqlarında, dərə və vadilərdə yerləşir. Axınları əyri-üyrü və sakit olan bu çaylar öz məcralarını asanlıqla yuyaraq yataqlarını lillləndirirlər. Onların suyu kənar qatışıqlarla bir o qədər də zəngin deyil və hamısının mənsəbi vardır. Lakin Kür çayı ətrafı dənizyanı qum təpələrinin yaranması nəticəsində bu çayların bir qismi kor arteriyaya çevrilir və mənsəbləri itir. Dayaz çayların qidalanması əsasən dağ çayları, bulaq və yerüstü suların hesabına həyata keçir. Dayaz çayların sonuncu növünü adətən qara su (suların hədsiz minerallaşması nəticəsi olaraq) adlandırırlar ki, onların mövcud olması da, dağ çayları arteriyaları ilə olduqca bağlıdır.

Kür özünün ən böyük qolu olan Araz çayı ilə Sabirabad şəhəri yaxınlığında birləşir və Neftçala rayonu ərazisində Xəzər dənizinə tökülür.

● İncə sənət

# Filoqrafiya

## Mismar, çəkic, taxta və rəngli sapların yaratdığı möcüzələr

**İncəsənətin çox nadir hesab edilən növlərindən biri filoqrafiyadır. Mərkəzi Asiyada yaransa da, materikin bir yanından digər tərəfinə qədər yayılıb. Lakin hazırlanması çətin olduğundan, insanların maraq dairəsindən kənarda qalıb. Xalçaçılıqda əriş-arğacdan, tikməçilikdə iynə-sapdan, rəssamlıqda fırça və boyadan istifadə olunduğu kimi, bu sənətdə də özünəməxsus istifadə materialları var: mismar, taxta, ip-sap. Bu materiallardan məharətli əllərlə gözoxşayan incəsənət əsəri yaratmaq mümkündür.**






İngilis dilində "xətt yazısı" mənasını verən bu incəsənət növü ölkəmizdə geniş yayılmayıb. Bəlkə də çoxları belə bir sənətin mövcudluğundan xəbərsizdir.

XVII əsrdə İngiltərədə bu sənət növü əvvəllər çox sadə şəkildə işlənib: taxta üzərində hər hansı bir fiqurun görüntüsünü mismarla həkk etmək, sonra isə onların arasını sapla toxumaq. Son 50 ildə Türkiyədə geniş yayılan filoqrafiya ölkəmizdə də özünə geniş şəbəkə yaratmaqdadır.

Görəsən, bəs sənət əsərləri ilə tanış olduğumuz Aytən Əliyevada, çoxlarından fərqli olaraq, incəsənətin bu növünə maraq haradandır - sualına ustanın cavabı həm maraqlı, həm də əhatəli oldu: "Bu sənəti internetdən görüb öyrənmişəm. Əsasən də rus saytlarından. Doğrudur, mən bunları görəndə internet bu qədər geniş sahəni əhatə etmirdi: orada indiki kimi çoxlu şəkillər yox idi. Mismarla yaradılan sənət əsərlərinə baxan kimi diqqətimi çəkdi. Əslində, məni heyran etdi. Fanatına çevrildim, vuruldum. Belə baxanda, o qədər də cazibədar deyildi, sadəcə bir ağac şəkli idi..."

## Çəkic-mismar və rəngarəng saplarla "dil tapan" sənətkar

Artıq filoqraf ustası kimi tanınan Aytən Əliyevanın sənət yolu beləcə, adilikdən başlayıb. Evdə əlinin altında nə olubsa onlardan istifadə edib: karton, mismar, rəngli saplar...

Getdikcə işi genişləndirən sənət fanatı sonralar onun peşəkarlarını tapıb, görüşüb. Öyrənməklə yanaşı, öz üslubunu da yaradıb.

Deyir ki, mismar və iplər vasitəsilə sənət nümunələri yaratmaq ilk baxışdan asan görünsə də, bu iş yaradıcılıq, qabiliyyət və səbir tələb edir. İş prosesində lazım olan ləvazimatlar müxtəlif ölçülü mismarlar, taxta lövhə, kəlbətin, ip və çəkicdən ibarətdir. İşin texnikası isə daha qəlizdir. Kiçik ölçülü lövhənin üzərindəki tabloya əvvəlcə mismarlar vurulur. Onların arası təxminən 5 mm olur. Diqqət tələb edən digər məqam sıx vurulmuş mismarların arası ilə iplərin keçirilməsi - hörülməsidir ki, bunu da necə gəldi etmək olmaz. Yəni iplər mismarlara xüsusi nizamla toxunmalıdır.

Artıq bu qeyri-adi incəsənət növündə özünü usta kimi təsdiqləyən Aytən Əliyeva işə başlamamışdan öncə xeyli düşünür: "Bəzən bu düşünmə iki gün davam edir. Düşünürəm ki, hansı tablonu işləyəcəyəm. Əvvəlcə həmin işin fonunu fikirləşirəm. Çünki əsas fonun rəngidir. Sonra şəklə uyğun rəngləri seçirəm. Əlbəttə, burada əsas ştrix rəssamlığa, tətbiqi sənətə əsaslanır. Rəssamlığa meylim orta məktəb illərindən var idi, lakin peşəkarlıqdan uzaq olmuşam. Orta məktəb illərində divar qəzetinin tərtibatını edirdim, görünür, rəssamlığa meylim olub. Stendlər düzəldirdim, rəsmlər çəkirdim, özümü elə bil, sınayırdım. Hər kəs doğulanda onda hansısa istedad olur. Lakin bu, hələ azdır usta olmaq üçün. Zəhmət o istedadı açmalı, cilalamalıdır".

## "40 gün, 40 gecə"nin sənət sirri

Doğrusu, o, bu işi başlayanda istedadın burada vacib olub-olmamasının fərqinə varmayıb. Sadəcə həvəsi olub, yəni hobbi kimi baxıb. Ya bəlkə də boş vaxtının hədərliyini aradan götürmək istəyindən yaranıb bu həvəs... Deyir ki, ola bilsin "hər kim istəsə məşğuliyyəti ilə istedadını göstərə bilər": "Yavaş-yavaş, baxdım ki, istədiyim kimi alınmasa da, nəyəsə nail olmaq mümkündür. Beləliklə, başladım mismar, çəkic və rəngarəng saplarla "dil tapmağa". Sözsüz ki, bu sənətin də müəyyən mərhələləri, onların da özünə görə bir sakitləşdirici, belə deyək, terapevtik növü var. Mənə görə, bu işin çətinliyi rənglərin seçilməsindədir, onun müəllifinin kişi, ya da qadın olmasında yox.

Rəssam şəkil çəkəndə onun üzərində işlədikcə digər rəng qata bilər, çalar əlavə edər. Necə deyərlər, rənglərin üstündə oynaya bilər. Ancaq məndə elə bir imkan, belə deyək də tələb yoxdur. Mənim məşğul olduğum sənət bunu tələb edir: hər şeyi əvvəlcədən düşünməliyəm. Çox düşünürəm ki, işlədiyim mövzu onu canlandırsın. İşlərimin başa çatma müddətinə gəlincə, elə vaxtlarım olub ki, aylarla onun üzərində çalışmışam. Bir xalça işim var idi. Onu aylarla işləməli idim. Amma o qədər həvəs və canfəşanlıqla çalışdım ki, nağıllarda deyildiyi kimi, "40 gün, 40 gecə"yə bitirdim. Hansı ki, aylarla vaxt sərf edəcəyimi düşünürdüm..."

## Hobbilikdən peşəkarlığadək

Bu "qeyri-adi xalçaçı" onun üzərində iki il fikirləşməli olub: rəngini, toxunuşunu, sapları haradan gətirəcəyini, yəni eskizi beynində cızanadək bu qədər vaxt sərf edib. Elə günlər olub ki, sadəcə, boş taxtanın üstünə baxıb düşünüb, fikirləşib, nəyisə axtarıb. Sənətkar etiraf edir ki, adam labirintə düşmüş hesab edir özünü o zaman: "Fikirləşirəm ki, əl işlərimdə özünəməxsusluq məhz mövzunu seçməyimdə daha çox hiss edilir. Çünki indiyədək müxtəlif mövzularda 350-dək əl işim olub. Rəngarəngliyi çox sevirəm. Bu, zövqdən asılıdır. Milli üslubda olan mövzuları həvəslə işləyirəm. Onlara can qoymağa çalışıram, ürəyimcə alınanda sevinirəm ki, bu sənətə yeni nəfəs gətirmişəm. Qürur hissi ilə deyərdim ki, ölkəmizdə bu işi peşəkarcasına görən mən olmuşam. Çünki bu sənət əsərlərimə görə 3 dəfə beynəlxalq festivala dəvət alıb, Vətənimizi orada layiqincə təmsil etmişəm. Doğrudur, bu işə hobbi ilə başlayıb, peşəkar kimi çağırılıramsa (dəvət aldığım festivallarda mənə belə müraciət edib bu işlərin ustaları), demək, nəyəsə nail olmuşam. Bu sənət çox incəlik tələb edir, baxmayaraq ki, əsasən çəkic-mismarla işləyirsən. O qədər çəkic mismara yox, barmaqlarıma dəyib zədələyib ki. Amma bu, məni çəkindirməyib, əksinə, daha da həvəs və inadkarlıqla işləməyə davam etmişəm. Əsasən də bir müddət çəkic-mismardan aralı qalıb sonra yenidən başlayanda barmaqlarım zədələnib. Nə qədər peşəkarlaşsan da, məşğul olmadıqca əl yadırğayır axı. Amma son illər çəkic-mismarla da dostlaşmışıq. Məni əsas yoran taxtaya vurulan, yerinə düşməyən mismarı çıxarmaqdır. Daha çox o zaman əziyyət çəkirəm. Məcazi mənada biz söhbət edirik birlikdə çəkic-mismarla".

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

*Təkrar*

## "Azərişıq" ASC Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiyası ilə yeni tikilmiş 35/ 10 kV-luq Yeni yarımstansiya arasında 35 kV-luq iki dövrəli SİP kabel xəttinin tikintisi işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT - 1.** Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiyası ilə yeni tikilmiş 35/10 kV-luq Yeni yarımstansiya arasında 35 kV-luq iki dövrəli SİP kabel xəttinin tikintisi işlərinin satın alınması (1-ci mərhələ) - 400 manat

**LOT - 2.** Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiyası ilə yeni tikilmiş 35/10 kV-luq Yeni yarımstansiya arasında 35 kV-luq iki dövrəli SİP kabel xəttinin tikintisi işlərinin satın alınması (2-ci mərhələ) - 400 manat

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namiq Heybətov (telefon: 440-39-93 daxili (23-71))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **09 sentyabr 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **17 sentyabr 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **18 sentyabr 2020-ci il saat 16:00-da** Ələsgər Qayıbov küçəsi, 8 ünvanında, "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 17 aprel 2020-ci il tarixdə vahid satınalma portalında elan edilmiş "5000 ədəd 6,5 metr hündürlüklü, kreozot məhlulu hopdurulmuş ağac dirəklərin satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi "MAYBO" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "MAYBO" MMC arasında 04 avqust 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Beynəlxalq aləm

### Co Bayden ABŞ prezidentliyinə demokratlardan rəsmən namizəd oldu



ABŞ-ın Demokratlar Partiyası ölkənin sabiq vitse-prezidenti Co Baydenin prezidentliyə namizədliyini rəsmən açıqlayıb.

Amerika KİV-in məlumatına əsasən, koronavirus pandemiyasına görə partiyanın virtual formatda keçirilən qurultayında dövlətlərdən və ərazilərdən olan nümayəndə heyətləri praymerizlərin nəticələrini açıqlayıblar. Bu nəticələrə görə, Bayden daha çox partiya nümayəndələrinin səsini qazanıb.

Noyabrın 3-də keçiriləcək seçkidə Baydenin rəqibi ölkənin hazırkı Prezidenti Donald Tramp olacaq.

### Mali Prezidenti istefa verdi



Mali Prezidenti İbrahim Bubakar Keyta qiyamçılar tərəfindən saxlanıldıqdan sonra istefasını elan edib. Bu barədə "Anadolu" Agentliyi xəbər verir.

Daha əvvəl bildirilmişdir ki, Malidə qiyamçı hərbçilərin liderləri ölkə rəhbərini paytaxt Bamako şəhərində yerləşən Prezident iqamətgahında həbs ediblər, bundan sonra onu Katidəki qarnizona aparıblar.

Keyta dövlət televiziyasının efirində bəyanat verib və iyulun 10-12-də etiraz aksiyaları zamanı vətəndaşların həlak olmasından təəssüfləndiyini bildirib.

Prezident həmçinin parlamentin və hökumətin buraxıldığını elan edib.

Daha öncə bildirilmişdir ki, bir qrup hərbçi Malidə qiyam qaldırmaq istəyir, parlamentin spikeri, nazir və yüksəkrütbəli hərbçilər oğurlanıb.

Yerli KİV-in məlumatına görə, avqustun 18-də paytaxtın 15 kilometrliyində yerləşən Kati şəhərində qarnizondan topların yaylımları eşidilirdi.

Kati hərbi düşərgəsi 2012-ci ildə Prezident Amadou Toumani Toure olarkən hərbi çevrilişin təşkilində mühüm rol oynayıb.

Malidə 2020-ci ilin may ayından ölkə Prezidentinin istefası tələbi ilə etiraz aksiyaları davam edir.

### İsraildə COVID-19-un nəticəsi 40 saniyəyə bilinir



İsraildə 96 faizdən çox dəqiqlik verən koronavirus üçün test üsulu uğurla sınaqdan keçirilib və prosesin özü bir dəqiqədən azdır. Bu barədə "Rosbalt" Agentliyi xəbər verir.

Məlumata görə, test üçün tüpürcək nümunəsi kifayət edir. Metodikanın dəqiqliyi hazırda koronavirusu aşkar etmək üçün istifadə olunan "klassik" PZR testindən də yüksəkdir.

Həmçinin İsraildə COVID-19-un 30-40 saniyə ərzində aşkarlanması texnologiyası və 20 dəqiqə ərzində xüsusi avadanlıq olmadan evdə cavab almağa imkan verən mobil əlavənin təqdimatı keçirilib.

### Kiyevdə Ermənistan vətəndaşı saxlanılıb

Ukraynada Türkiyə və ABŞ-ın Kiyevdəki səfirliklərində bomba barədə verdiyi yalan məlumata görə Ermənistan vətəndaşı saxlanılıb. Bu barədə yerli KİV xəbər verir.

Kiyev Prokurorluğunun Mətbuat xidmətindən verilən məlumata görə, avqustun 1-də cinayətkar polisə iki dəfə zəng edib və diplomatik missiyalarda yerləşdirilmiş bomba barədə məlumat verib.

Ukrayna paytaxtında bəd əməllər törədərək qarışıqlıq yaratmaq istəyən Ermənistan vətəndaşını altı ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir.

O, 2018-ci ildə də analoji cinayət törədib, lakin şərti cəza alıb.

### ABŞ-ın Suriyadakı hərbi bazası raket atəşinə məruz qalıb



Suriyanın Deyr əz-Zor əyalətinin şimalında yerləşən ABŞ-ın hərbi bazasına bir neçə raket atılıb. Bu barədə SANA İnformasiya Agentliyi xəbər verir. Məlumata görə, raket atəşinə məruz qalan baza Amerika qoşunları və kürd silahlı qruplaşmaları tərəfindən nəzarət edilən Konoko neft yatağı yaxınlığında yerləşir. ABŞ ordusunda tələfatla bağlı məlumat verilmir.

Qeyd olunur ki, bu, 2015-ci ildən bəri Suriyanın Haseke, Rəqqə və Deyr əz-Zor əyalətlərində yaradılan ABŞ-a məxsus 12 hərbi obyektdən birinin atəşə tutulduğu ilk faktdır. ABŞ hazırda kürdlərlə birlikdə Fərat çayının şərq sahilindəki neftlə zəngin ərazilərə, xüsusən də müharibəyə qədər Suriya neftinin 80 faizinin hasil olunduğu Ömər, Tanak, Cəfrə və Konokonun ən böyük yataqlarına nəzarəti ələ keçirib.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

## OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN"

### *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*4 aylıq*
41,60 (qırx bir manat altmış qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2020-ci ildə 311900 - "Sair torpaq, tikili və avadanlıqlar" paraqrafı üzrə bütün növ mebellərin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 200 manatdır.**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y**
**İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **30 sentyabr 2020-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanəti isə möhürlənmiş ikiqat zərfdə **08 oktyabr 2020-ci il saat 17:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **09 oktyabr 2020-ci il saat 15:00-da** Portalda açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxs

### *açıq tenderə dəvət edir*

- Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsi üçün anbar sahəsinin icarəsi xidmətinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 50 (əlli) manat**

**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(notarial qaydada təsdiq olunmuş);***
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);***
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.09.2020-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17.09.2020-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **18.09.2020-ci il saat 14:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

### Düzəliş

Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin "Azərbaycan" qəzetinin 30 iyul 2020-ci il tarixli sayının 7-ci səhifəsində dərc olunmuş 3 ədəd açıq tender elanlarında "İştirak haqqı - 200 manat" kimi oxunmalıdır.

### ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Anar Bayramova anası

**NATELLA BAYRAMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7278
Sifariş 1939
Qiyməti 40 qəpik